RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 73 (8666) ŞƏNBƏ, 10 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İslam dünyası İlham Əliyevin Qələbəsini təqdir edir

## Azərbaycan Ermənistanın işğal siyasətinə son qoymaqla həm də müsəlman aləminin mədəni-dini irsini xilas etdi

**Dünyada geniş əks-səda doğuran İkinci Qarabağ müharibəsi Azərbaycanın torpaqlarını azad etməsi, Ermənistanın işğal siyasətinə son qoyulması ilə nəticələndi. Bu savaş İlham Əliyevin siyasətçi kimi müdrikliyini, Ali Baş Komandan kimi qətiyyətini nümayiş etdirdi. Bu Zəfər xalqımızın milli həmrəyliyinin, öz haqqı uğrunda mübarizə aparmaq əzminin təcəssümü oldu.**

### Siyasi-diplomatik uğurun təntənəsi

44 günlük savaş həm də Azərbaycanın siyasi-diplomatik uğurunun təntənəsi kimi tarixə düşdü. Müharibə günlərində Azərbaycanı öz yolundan döndərmək üçün xarici təzyiqlərə cəhd göstərildi. Lakin İlham Əliyev siyasi uzaqgörənliklə, diplomatik peşəkarlıqla həmin cəhdlərin qarşısını aldı. Prezident Ermənistanın işğal siyasətinin dəstəklənməsinə yönəlmiş bütün beynəlxalq təşəbbüslərə qətiyyətlə sinə gərdi, onların reallaşmasına imkan vermədi.

Müharibənin əvvəllindən Fransa prezidenti açıq şəkildə Ermənistanın müdafiəsinə qalxdı, amma tezliklə gördü ki, İlham Əliyevə təzyiq etmək, Azərbaycanı öz yolundan çəkindirmək mümkün deyil. Bu gün artıq Fransanın bütün siyasi dairələri Azərbaycanın qalib olduğu müharibənin nəticələri ilə razılaşmağa məcburdurlar, çünki başqa yolları yoxdur.

Onu da xatırladaq ki, ötən ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasının (TŞ) Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra Fransanın təşəbbüsü ilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələri tərəfindən TŞ Prezidentinin bəyanatının layihəsi hazırlanmış və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Lakin bəyanatın layihəsində TŞ-nin 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrə istinad yer almadığı üçün TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına üzv ölkələr tərəfindən rədd edilmişdi. O zaman bu bir daha sübut etmişdi ki, Prezident İlham Əliyevin xarici siyasət xətti zərgər dəqiqliyi ilə ölçülüb-biçilib və uzunmüddətli hədəflərə hesablanıb.

### Mütərəqqi xarici siyasətin təcəssümü

İkinci Qarabağ müharibəsində ayrı-ayrı dövlətlər də Azərbaycanın haqq səsini birmənalı şəkildə müdafiə etdi. Qardaş Türkiyə hələ əvvəldən bəyan etdiyi kimi, bu müharibədə Azərbaycana birmənalı dəstək verdi. Həmin dövrdə Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Milli Müdafiə naziri Hulusi Akar dəfələrlə Azərbaycanda səfərdə oldular. Bundan başqa, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler, Türkiyənin Baş Ombudsmanı Şərəf Malkoç və Türkiyənin keçmiş Baş naziri Binəli Yıldırım, Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidan da Azərbaycana səfər etdilər. Zəfər paradında isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etdi.

Türkiyə ilə yanaşı, Pakistan dövləti də Azərbaycana birmənalı dəstəyini ifadə etdi. Məlum olduğu kimi, Pakistan Ermənistanla işğalçılıq siyasətinə görə diplomatik münasibət yaratmayıb. Bunlardan başqa, Əfqanıstan, Ukrayna, İsrail də Azərbaycana dəstək ifadə etdilər.

Ardı 3-cü səh.

# Azad edilmiş torpaqlarda erməni vəhşiliyi, vandallığı göz qabağındadır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırı qəbul edib. AZƏRTAC xəbər verir ki, Volkan Bozkırı salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Xoş gəlmisiniz. Sizinlə dəfələrlə görüşmüşdük, Bakıda siz dəfələrlə olmusunuz. Amma bu dəfə BMT Baş Assambleyasının prezidenti kimi səfər edirsiniz. Çox gözəl hadisədir. Şadam ki, Azərbaycana səfər edirsiniz. Bildirməliyəm, biz fəxr edirik ki, qardaş ölkənin nümayəndəsi BMT Baş Məclisinin prezidentidir. Bilirəm ki, COVID-ə baxmayaraq, 75-ci sessiya uğurla davam edir və burada sizin böyük səyləriniz vardır.

Eyni zamanda bizə göstərdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Bilirsiniz ki, biz COVID-lə bağlı bir neçə təşəbbüslə çıxış etdik. Türk Şurasının Zirvə görüşünü, Qoşulmama Hərəkatının Zirvə görüşünü keçirdik və BMT Baş Assambleyasının COVID-lə bağlı xüsusi sessiyasının keçirilməsinə də nail olduq və sizin də böyük dəstəyiniz oldu. Hesab edirəm, ondan sonrakı hadisələr göstərdi ki, doğrudan da, bu indi gündəlikdə duran önəmli məsələlərdən biridir. Çünki vaksin millətçiliyi, vaksinlərin ədalətsiz bölüşdürülməsi bu gün artıq dünya gündəmini zəbt edən bir məsələdir. Azərbaycan ilk ölkələrdən idi ki, bu məsələni açıb qaldırdı. Bu gün biz çalışırıq ki, bu ədalətsizliyi aradan qaldıraq. Eyni zamanda COVID dönəmində biz 30-dan çox ölkəyə maddi və humanitar yardım göstərmişik və bu fəaliyyəti davam etdirmək əzmindəyik.

BMT qurumları ilə bizim ənənəvi sıx əlaqələrimiz olubdur və bu əlaqələr davam edir. Müharibədən sonrakı dövr ərzində təmaslar daha fəal olub və bu təmaslar davam etdiriləcək və əlbəttə ki, bundan sonra BMT dünyanın aparıcı qurumu kimi postmünaqişə dövründə də fəal olmalıdır. Mən dəfələrlə bildirmişdim ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bunu həll edib və 30 ilə yaxın kağız üzərində olan qətnamələri yerinə yetirib və artıq münaqişə tarixdə qalıbdır. İndi isə yeni dövr başlayıb - quruculuq dövrü, bərpa dövrü.

Ardı 2-ci səh.

# Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Bildirildi ki, ölkələrimizin prokurorluq orqanları arasında həyata keçirilən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrimizin genişlənməsi işinə töhfə verməklə bərabər, ölkələrimiz qarşısında duran təhdidlər, müasir çağırışlar, cinayətkarlığa qarşı mübarizə işində mühüm rol oynayır.

Söhbət zamanı əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu, perspektiv məsələlər müzakirə edildi.

# AÇG və "Şahdəniz": sərvətləri bol, gəlirləri çox

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bu ilin yanvar-mart aylarında "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından çıxarılan karbohidrogenlərin satışından əldə olunan gəlirləri açıqlayıb.



AÇG yataqlar blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində cari ilin ilk üç ayında 953 milyon 498 min dollar gəlir əldə edilib. "Şahdəniz" yatağı üzrə təbii qaz və kondensat satışından gəlir isə 29 milyon 166 min dollar olub. Beləliklə, AÇG və "Şahdəniz" Azərbaycan iqtisadiyyatının dayaq sütunlarını təşkil edir və yenə də əsas gəlir mənbəyimiz olaraq qalır.

ARDNF-nin İctimaiyyətlə əlaqələr departamentinin məlumatında həmçinin bildirilir ki, 2020-ci ildə "Şahdəniz"in gəliri 293,9 milyon dollar olub. AÇG layihəsi üzrə keçən ildəki gəlir isə 3 milyard 522,7 milyon dollar təşkil edib.

Xatırladaq ki, Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensat həcmində dəyərləndirilir.

Ardı 5-ci səh.

# Azərbaycan vaksinasiyada əksər ölkələri qabaqlayır

Hazırda dünya koronavirus pandemiyası ilə mübarizənin vaksinasiya mərhələsindədir. Qlobal bəla ilə bağlı elm mütəxəssislərinin gəldiyi ümumi qənaət də koronavirusdan qurtulmağın yalnız peyvəndlərlə mümkün olması barədədir.

Buna görə də artıq ötən ilin dekabrından etibarən bir çox ölkələrdə koronavirus infeksiyasına qarşı peyvəndləmə prosesinə başlanılıb.

Azərbaycanda da yanvar ayının 18-dən koronavirusa qarşı peyvəndləməyə start verilib və bu proses bütün ölkə üzrə uğurla və sürətlə həyata keçirilir. Avropa İttifaqından cəmi 1 ay sonra, Cənubi Qafqazda isə ilk dəfə olaraq vaksinasiyaya start verən ölkəmiz öncədən 4 milyon doza vaksinin gətirilməsini təmin edib. Azərbaycan COVAX təşəbbüsünün üzvü kimi vaksin istehsal edən bir neçə şirkətlə də müqavilə imzalayıb.

Statistika göstərir ki, Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında ilk yerlərdən birini tutur. MDB-də koronavirusa qarşı peyvəndləmənin səviyyəsi barədə məlumatlara əsasən, regionda buna ilk başlayan ölkələrdən biri olaraq Azərbaycan həm peyvənd olunma həcminə, həm də ondan istifadə sürətinə görə əksər ölkələri qabaqlayır.

### Güclü siyasi iradənin göstəricisi

Dünyada vaksinlərin ölkələr üzrə ədalətsiz bölgüsünün yaşandığı bir vaxtda Azərbaycanın qısa zamanda vaksin gətirilməsini təmin etməsi və bu prosesi sürətlə həyata keçirməsi birbaşa Prezident İlham Əliyevin güclü siyasi iradəsinin göstəricisidir.

Respublikamız yalnız ölkə daxilində deyil, COVID-19 pandemiyasına qarşı qlobal səylərin səfərbər edilməsində də uğurlu işlər həyata keçirir. Aprelin 6-da Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil-qərargahında təşkilatın Baş direktoru Tedros Adhanom Gebreyesusun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciətində də bu məsələyə toxunulub.

Ardı 4-cü səh.



# Arıçılığa dövlət dəstəyi bəhrəsini verir

Ölkədə aqrar sektorun inkişafı istiqamətində aparılan siyasət öz müsbət nəticəsini verməkdə davam edir. Hətta koronavirus pandemiyası dövründə bir çox sahələrdə məhsul istehsalı azalsa da, kənd təsərrüfatında tənəzzül hiss olunmamışdır. Bu fakt da sübut edir ki, dövlətin son vaxtlar kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına verdiyi dəstək nəticəsiz qalmamışdır.

Xüsusilə dövlət başçısı tərəfindən ənənəvi sahələrin dirçəldilməsi barədə imzaladığı sərəncamlar bu təşəbbüsün özünü doğrultduğunu sübut etmişdir. Pambıqçılığın, tütünçülüyün, baramaçılığın, çəltikçiliyin, fındıqçılığın və digər sahələrin inkişafı ilə bağlı görülən tədbirlərdən sonra adları çəkilən sahələrdə məhsuldarlığın yüksək sürətlə artması da bunu təsdiqləyir. Məsələn, baramaçılığın inkişafı barədə imzalanmış sərəncamdan sonra bu sahədə məhsuldarlıq faizlə deyil, dəfələrlə artmışdır.

Ardı 5-ci səh.

# Azad edilmiş torpaqlarda erməni vəhşiliyi, vandallığı göz qabağındadır

*Əvvəli 1-ci səh.*

Artıq buna da start verilmişdir və BMT-nin bütün qurumları ilə, o cümlədən biz artıq UNESCO ilə sıx təmasdayıq. UNESCO ilə gedən müzakirələr əsnasında missiyanın göndərilməsi nəzərdə tutulur. Əslində, biz münaqişə dövründə dəfələrlə UNESCO-ya müraciət etmişdik ki, faktaraşdırıcı missiyanı işğal edilmiş bölgələrə göndərsin. Çünki bizdə olan məlumata görə, orada bizim tarixi, dini, mədəni abidələrimiz ermənilər tərəfindən dağıdılmışdır və biz istəyirdik ki, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə bilavasitə məşğul olan UNESCO gəlsin və bunu təsdiq etsin. Əfsuslar olsun ki, münaqişə dövründə bu təklifimiz cavabsız qalmışdır, ancaq münaqişədən sonra indi missiyanın göndərilməsi gözlənilir. Biz bunu alqışlayırıq. Çünki azad edilmiş torpaqlarda erməni vəhşiliyi, vandallığı göz qabağındadır. Nə qədər çox beynəlxalq təşkilatlar bunu öz gözləri ilə görsələr, münaqişə ilə bağlı, Ermənistanın işğalı ilə bağlı dünya birliyində təsəvvür o qədər də daha geniş olar.

Bir sözlə, hörmətli Volkan bəy, biz bu istiqamətdə işlərimizi davam etdirəcəyik. Bir daha Azərbaycana gəldiyiniz üçün sizə təşəkkürümü bildirmək istəyirəm. Bilirəm ki, siz bu yaxınlarda Türkiyəyə, Vətəninizə səfər etmisiniz və Azərbaycana, yenə də Vətəninizə səfər edirsiniz.

BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti **Volkan BOZKIR** dedi:

- Hörmətli cənab Prezident.

Həqiqətən də, Azərbaycana BMT Baş Assambleyasının sədri olaraq ilk səfərimi etməkdən böyük məmnunluq və qürur duyuram. Azərbaycan BMT üçün çox önəmli bir ölkədir. Zati-alinizin pandemiya dövründə rəhbərlik etdiyi BMT-nin xüsusi sessiyası, həqiqətən, tam zamanında və son dərəcə önəmli nəticələr ortaya qoyan bir toplantı oldu. Sizin aylarla sürən səyləriniz, əslində, mənə sədrlik etmək qürurunu bəxş etdi və bu baxımdan Sizə təşəkkür borcluyam.

Həmçinin Qoşulmama Hərəkatına sədrliyi son dərəcə müvəffəqiyyətlə həyata keçirirsiniz. Bu, BMT üçün çox önəmli bir təşkilatdır və onun sədri olmaq da xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan fəaliyyətinizə görə Sizə təşəkkür etmək məqsədilə gəldim.

BMT Baş Assambleyasının bir türk sədri olaraq Azərbaycana gəlmək mənim üçün xüsusi bir xoşbəxtlik və qürur mənbəyidir. Bəhs etdiyiniz bütün məsələləri, həqiqətən, Nyu Yorkdan diqqətlə izləyirik.

## Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası ülyahəzrət II Elizabetə

Ülyahəzrət!

Həyat yoldaşınız - Edinburq Hersoqu, Şahzadə Filipin vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Şərəfli və ləyaqətli bir ömür yolu keçmiş Şahzadə Filip öz doğma xalqına sədaqətlə xidmət etmiş, həmişə Sizin yanınızda olmuş, ölkənizin rifahı naminə məsuliyyətli fəaliyyətinizdə Sizə dəstək vermişdir.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, ailənizin üzvlərinə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

## Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri zati-aliləri cənab Boris Consona

Hörmətli cənab Baş nazir!

Edinburq Hersoqu, Şahzadə Filipin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə, Birləşmiş Krallığın bütün xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

## Azərbaycan Tibb Universiteti əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Tibb Universitetinin 90 illiyi münasibətilə Azərbaycanda tibb təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Tibb Universitetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Elçin Kamil oğlu
Axundov Ramiz Atalla oğlu
Camalov Fariz Hidayət oğlu
Cavadov Samir Sabir oğlu
Cəfərov Ələmdar Mədət oğlu
Əhmədov İlham Əvəzağa oğlu
Əliyeva Zemfira Abdul Həmid qızı
İsmayılov Qurban Meyfalı oğlu
Nəsirli Cəfər Əliabbas oğlu
Səlimov Rövşən İmran oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

## E.P.İbrahimova tibb xidməti general-mayoru ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Tibb xidməti polkovniki Elxan Paşa oğlu İbrahimova tibb xidməti general-mayoru ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

## Azərbaycan Tibb Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Tibb Universitetinin 90 illiyi münasibətilə Azərbaycanda tibb elminin və təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Tibb Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar elm xadimi"**

Allahverdiyeva Lalə İsmayıl qızı
Bağırova Hicran Firudin qızı
Məmmədov Arif Məmməd oğlu

**"Əməkdar müəllim"**

Həsənov Faiq Paşa oğlu
Məmmədov Fəxrəddin Nərman oğlu
Məmmədova Zemfira Şahnəzər qızı
Ocaqverdi Zadə Elmira Əli qızı

**"Əməkdar həkim"**

Bəylərov Rauf Oruc oğlu
Pənahov Nazim Adil oğlu
Poluxov Ramiz Şamil oğlu
Şükürov Malik Əvəz oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

## Vətən müharibəsinin qəhrəmanlarının və onların ailə üzvlərinin qayğılarının həlli dövlət siyasətinin əsas prioritetidir

"Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Ordumuz Vətən müharibəsini möhtəşəm Qələbə ilə yekunlaşdırdı. Qürurla deyə bilərik ki, uzun illərdir işğal altında olan torpaqlarımızın düşmən işğalından azad edilməsi tariximizin ən parlaq səhifələrindəndir".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev qeyd edib ki, Vətən müharibəsində qazanılmış Qələbədən sonra dövlətimizin qarşısında duran əsas məsələlərdən biri də şəhid ailələri və qazilərin qayğılarının diqqət mərkəzində saxlanmasıdır. Hazırda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin problemlərinin dərhal həll edilməsi, onların məişət şəraitinin daha da yaxşılaşdırılması üçün lazımi tədbirlər görülür. Şəhid ailələri və qazilərin qayğıları daim Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. "Bu sahədə görülən işlərdən danışarkən Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanına əsasən, şəhid ailələrinin və qazilərin qayğıları ilə bağlı işlərin daha səmərəli və çevik aparılması məqsədilə yaradılmış "YAŞAT" Fondunu xüsusi qeyd etmək lazımdır. Fondun fəaliyyəti qazilərimizin xarici ölkələrdə müalicələrinin təşkili, eyni zamanda şəhid ailələrinin və qazilərimizin məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə işlərin görülməsini özündə ehtiva edir. Çox mütərəqqi addımlardan biri olan "YAŞAT" Fonduna həm ölkə daxilindən, həm də xarici ölkələrdən ianələr edilməsi bu qurumun maddi resurslarının genişlənməsinə istiqamətlənmişdir. Fond da öz fəaliyyətində şəffaflığı rəhbər tutmaqla, cəmiyyətə açıq hesabatları təqdim etməklə bu nəcib təşəbbüsün davam etdirilməsini hədəfləyir. Fondun təşəbbüsü ilə şəhid ailələri və qazilərlə görüşlər keçirilir, onların ehtiyacları müəyyən edilir və mövcud problemlərin həlli istiqamətində müvafiq addımlar atılır", - deyə A.Əliyev vurğulayıb.

Milli Məclis sədrinin müavini vurğulayıb ki, dövlətin bu sahədə apardığı siyasətin davamı olaraq şəhid hərbi qulluqçuların, habelə onların ailə üzvlərinin, qazilərin kreditlərinin bağışlanması təqdirəlayiqdir. O deyib: "Şəhid ailələrinin və qazilərimizin qayğılarının diqqətdə saxlanması ilə yanaşı, dövlət siyasətimizin əsas prioritetlərindən biri də Qarabağın tez bir zamanda bərpa edilməsidir. Dərin təəssüf hissi ilə qeyd etməliyik ki, Ermənistan 30 il ərzində Qarabağı talan etmiş, bir salamat bina belə saxlamamışdır. Qarabağın dirçəlişini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli Fərmanı ilə Qarabağ Dirçəliş Fondu yaradılıb. Bu fond 30 ilə yaxın müddət ərzində erməni qəsbkarları tərəfindən talan edilmiş və bu gün işğaldan azad olunmuş ərazilərimizin yenidən həyata qaytarılmasına, ölkəmizin siyasi-iqtisadi suverenliyinin güclənməsinə xidmət edəcək. Hər bir vətənpərvər vətəndaşımız oraya pul köçürməklə əzəli və əbədi torpaqlarımızın bərpasında iştirakını təmin edəcək".

Adil Əliyevin sözlərinə görə, Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərimizin tamamilə yenidən qurulmasında, müasir şəhər, qəsəbə və kəndlər tikməklə bölgəyə dinc, təhlükəsiz, rahat həyat gətirilməsində, məcburi köçkünlərimizin daimi yaşayış yerlərinə qayıtmasında mühüm rol oynayacaq. Fondun fəaliyyəti işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə yanaşı, Qarabağın güclü iqtisadiyyata malik regiona çevrilməsi istiqamətində də dəstək göstərəcək, habelə xarici ölkələrdən investisiyaların cəlbinə şərait yaradacaq. "Bundan başqa, müharibədə iştirak etmiş, tərxis olunmuş şəxslərin müraciətlərinə dərhal baxılaraq həlli məqsədilə də xüsusi komissiya yaradılıb. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən bu komissiya qısa müddət ərzində 800-ə yaxın müraciətə baxıb və onların həll olunması üçün tədbirlər görüb. Füzuli rayonu ərazisində isə komissiyanın səyyar qrupu da fəaliyyət göstərir", - deyə o, qeyd edib.

Milli Məclis sədrinin müavini bildirib ki, Vətən müharibəsi iştirakçılarının qayğılarının diqqət mərkəzində saxlanması məqsədilə Nazirlər Kabinetinin 2021-ci il 30 yanvar tarixli 24 saylı Qərarına əsasən, Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adının verilməsi işinin təşkili üzrə də xüsusi komissiya yaradılaraq fəaliyyətə başlayıb. Bütün bunlar onu deməyə əsas verir ki, şəhid ailələrinin və qazilərin qayğıları bundan sonra da daim diqqət mərkəzində saxlanılacaq, dövlətimizin sosial siyasətinin prioritet istiqaməti olaraq qalmaqda davam edəcəkdir.

## Milli Məclisin sədri Sahibə Qafarova BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti ilə görüşüb

**Aprelin 9-da Milli Məclisin sədri Sahibə Qafarova BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, parlamentin sədri qonaqları səmimi salamlayaraq, Azərbaycanın BMT ilə əlaqələrin inkişafına böyük önəm verdiyini deyib. Qeyd edilib ki, ölkəmiz bu nüfuzlu beynəlxalq təşkilatın orqanları ilə sülh və təhlükəsizlik məsələlərinə dair müzakirələrdə fəal iştirak edir, qurumun xətti ilə keçirilən tədbirlərə öz layiqli töhfəsini verir. Heç də təsadüfi deyildir ki, müstəqil Azərbaycan BMT TŞ-nın qeyri-daimi üzvü olduğu dövrdə Prezident İlham Əliyevin sədrliyi ilə terrorizmlə mübarizə və BMT ilə İslam dünyası arasında tərəfdaşlıq məsələlərinə həsr olunmuş yüksəksəviyyəli görüşlər keçirilib. Ölkəmiz beynəlxalq təhlükəsizliyə dair mühüm qərarların qəbul olunmasında yaxından iştirak edib. Azərbaycan sülhməramlıları BMT-nin mandatı ilə bu gün də Əfqanıstanda və Cənubi Sudanda sülhüqoruma əməliyyatlarında fəal iştirak edirlər.

Sahibə Qafarova bildirib ki, Azərbaycan qlobal xarakterli məsələlərin həllində də səylərini əsirgəmir. Belə ki Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Prezidentinin təklifi ilə BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası keçirilib. Sessiyada bu məsələdə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb. Milli Məclisin sədri qonağın təmsil etdiyi təşkilatla ölkəmiz arasında "2021-2025-ci illər üçün BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi sənədi"nin imzalanmasını yüksək dəyərləndirib.

Söhbət zamanı Sahibə Qafarova artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının vaxtilə qəbul etdiyi 4 qətnaməni xatırlayaraq, 44 günlük Vətən müharibəsi dönəmində bu sənədlərin Azərbaycanın özü tərəfindən icra edildiyini və ölkənin ərazi bütövlüyünün bərpa olunduğunu söyləyib. Ancaq işğaldan azad olunmuş ərazilərimizdə minalanmış sahələrin xəritələrini Ermənistan dövləti hələ də təqdim etmir. Bu isə müharibə cinayətidir və təhlükəsizliklə bağlı çox böyük problemlər yaradır. Biz bu məsələdə beynəlxalq birliyin dəstəyinə ümid edirik. Bu xəritələrin təqdim edilməsi Qarabağda bərpa işlərinin daha sürətlə aparılmasına təkan verəcək.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Volkan Bozkır BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti kimi ilk səfərlərindən birini Azərbaycana etməsindən qürur duyduğunu söyləyib. Bildirilib ki, BMT bu təşkilat üçün çox önəmli ölkə olan Azərbaycanla əlaqələri daha da dərinləşdirməkdə maraqlıdır.

Volkan Bozkır deyib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə pandemiya dövründə BMT-nin xüsusi sessiyasının keçirilməsi beynəlxalq aləmdə geniş rezonans doğurub. Biz pandemiya ilə əlaqədar Azərbaycanın digər ölkələrə və qurumlara göstərdiyi yardımları yüksək dəyərləndiririk. İndi hamılıqla birlikdə postpandemiya dövrünə - yeni çağırışlara hazır olmalıyıq.

Görüşdə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.

## Azərbaycanın xarici işlər naziri İslam Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüş keçirib

**Aprelin 8-də xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd əl-Osaymin ilə görüş keçirib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə, həmçinin hazırda ölkəmizdə səfərdə olan İƏT-in Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Təmas Qrupuna daxil olan ölkələrin daimi nümayəndələri də iştirak ediblər.

Nazir Ceyhun Bayramov Azərbaycanın İƏT ilə mövcud olan yüksəksəviyyəli münasibətlərini məmnunluqla qeyd edib. Təşkilat ilə bir çox sahələrdə, o cümlədən iqtisadi, elm və mədəniyyət, gənclər, əmək və digər sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini vurğulayıb. Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqq mövqeyinə İƏT-in birmənalı dəstəyi və bu çərçivədə keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı çoxsaylı qətnamələrin qəbul edildiyi qeyd edilib.

Nazir Azərbaycanın işğaldan azad edilən ərazilərində Ermənistan tərəfindən törədilən dağıntıların miqyasını İƏT-in Təmas Qrupunun üzvlərinin şəxsən görmək imkanının olduğunu bildirib və son hərbi əməliyyatlar zamanı Ermənistanın məqsədli şəkildə mülki əhali və infrastrukturu hədəf aldığını qarşı tərəfin diqqətinə çatdırıb.

Nazir həmçinin azad edilmiş ərazilərdə vaxtilə Ermənistan tərəfindən basdırılan minaların insan həyatına çox ciddi təhdid təşkil etdiyini və Ermənistan tərəfindən mina xəritələrinin təqdim edilməməsinin müharibə cinayətinə bərabər olduğunu vurğulayıb.

Baş katib Yusif bin Əhməd əl-Osaymin Azərbaycanı Qələbə münasibətilə təbrik edib. O, Azərbaycan Respublikası Prezidenti ilə görüşünü məmnunluqla vurğulayıb. Ərazilərinin işğal altında qaldığı 30 ilə yaxın müddətdə nümayiş etdirilən səbrin Prezidentin sülhpərvər olduğuna dəlalət etdiyini qeyd edib.

Baş katib azad edilmiş ərazilərdəki dağıntılardan xəbərdar olduğunu bildirib, tarixi abidələrin, dini ibadətgahların qorunmasının çox önəmli məsələ olduğunu qeyd edib. Azərbaycanın hər zaman tolerantlıq nümunəsi olduğunu söyləyən İƏT-in Baş katibi azad edilmiş ərazilərdəki yenidən quruculuq işləri nəticəsində burada bərpa olunacaq həyat və birgə yaşayışla ölkənin parlaq nümunə olacağına inandığını səsləndirib.

Həyata keçirilən yenidənqurma və bərpa prosesində İƏT-in İslam İnkişaf Bankı, eləcə də digər institutlarının iştirak edəcəyi vurğulanıb.

Nazir Ceyhun Bayramov Azərbaycan Respublikası Prezidenti tərəfindən "Dostluq" ordeni ilə təltif olunması münasibətilə Baş katib Yusif bin Əhməd əl-Osaymini təbrik edib.

Görüşdə həmçinin İƏT-in Təmas Qrupunun üzvləri ölkəyə səfərlərinin nəticələri və qrupun gələcək fəaliyyət istiqamətləri ilə bağlı fikirlərini bölüşüblər.

## Azərbaycanla BMT arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb

Aprelin 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırla görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov BMT Baş Assambleyasının 75-ci sessiyasına uğurla sədrlik etməsi münasibətilə Volkan Bozkırı təbrik edib. Pandemiyaya rəğmən, sədrliyin çox fəal şəkildə həyata keçirildiyi qeyd olunub və bu xüsusda Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslərə Baş Assambleyanın sədrliyinin dəstəyi məmnunluqla vurğulanıb.

Volkan Bozkır Baş Assambleyanın 75-ci sessiyasının prezidenti qismində ilk səfərlərini reallaşdırdığını bildirib və bu çərçivədə Azərbaycanda olmaqdan qürur duyduğunu qeyd edib. Azərbaycanın həm geostrateji, həm də BMT-yə töhfəsi baxımından vacib ölkə olduğunu ifadə edib. Baş Assambleyanın sədri Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən COVID-19 ilə mübarizəyə həsr olunan Baş Assambleyanın xüsusi sessiyasının son dərəcə önəmli toplantı olduğunu söyləyib.

Nazir Ceyhun Bayramov Volkan Bozkıra bölgədəki mövcud vəziyyət, üçtərəfli bəyanatların imzalanması ilə yaranan yeni reallıqlar, işğal amilinin aradan qaldırılması nəticəsində Ermənistan ilə Azərbaycan arasında münasibətlərin beynəlxalq hüquq prinsiplərinə ciddi riayət əsasında normallaşdırılması imkanlarının yarandığı, habelə işğaldan azad edilmiş ərazilərdəki vəziyyət, Ermənistanın törətdiyi genişmiqyaslı dağıntılar, mina təhlükəsi barədə məlumat verib.

Tərəflər həmçinin Azərbaycanla BMT arasında əməkdaşlıq, gələcək fəaliyyət istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Azərbaycanın xarici işlər naziri Türk Şurasının Baş katibi ilə görüşüb

Aprelin 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyev ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov cari il martın 31-də videokonfrans formatında təşkil olunan qeyri-formal zirvə görüşünün uğurla keçirildiyini qeyd edib. Türk Şurasının yüksəksəviyyəli toplantısının hər zaman olduğu kimi dostluq, qarşılıqlı anlaşma və dəstək çərçivəsində keçirildiyi vurğulanıb.

Baş katib Bağdad Amreyev pandemiya səbəbindən Qazaxıstanın Türküstan şəhərində keçirilməsi planlaşdırılan zirvə görüşünün videokonfrans formatında keçirildiyini və bu toplantının türkdilli dövlətlər arasında mövcud olan həmrəyliyi bir daha yüksək səviyyədə nümayiş etdirdiyini bildirib. Türk Şurasının Bakıda keçirilən informasiya və media üzrə məsul nazirləri və yüksəkvəzifəli rəsmilərinin 3-cü toplantısına istinad edən Baş katib bu sahədə üzv ölkələrin əməkdaşlığının genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Tərəflər həmçinin Türk Şurası çərçivəsində müxtəlif sahələrdə həyata keçirilməsi planlaşdırılan tədbirlər, təşkilatın qarşıdan gələn İstanbul Zirvə görüşünə hazırlıq və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# SOCAR-da Vizualizasiya Mərkəzinin açılışı olub

Aprelin 9-da SOCAR Tower-də istehsalat əməliyyatlarının vahid rəqəmsal mərkəzdən idarə olunması, ixtisaslaşmış sahələr üzrə xüsusi toplantıların keçirilməsi, irihəcmli və kritik layihələr üzrə müzakirələr aparılması, operativ qərarların qəbul edilməsi, eləcə də böhran vəziyyətləri və fövqəladə halların idarə olunması funksiyalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş Vizualizasiya Mərkəzinin açılışı keçirilib.



Şirkətdən AZƏRTAC-a bildirilib ki, açılış mərasimində SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və şuranın üzvləri, SOCAR-ın prezidenti Rövnəq Abdullayev və şirkət rəhbərliyinin digər təmsilçiləri iştirak ediblər. Qonaqlar öncə SOCAR Tower-də yerləşən neft sərgisi ilə tanış olub, daha sonra isə Vizualizasiya Mərkəzini ziyarət ediblər.

Artıq 10 ildən çoxdur ki, SOCAR-da biznes proseslərin avtomatlaşdırılması ilə bərabər korporativ rəqəmsal idarəetmə platformasının yaradılması uğurla davam etdirilir. Bu proses hazırda şirkətin bütün əsas fəaliyyət sahələrini əhatə edir. Şirkətin Neft Mədən Korporativ Verilənlər Bazasında ötən 175 il ərzində Azərbaycanda qazılmış, hazırda istismarda olan və istismardan çıxarılmış 44 min quyunun 50 faizə qədəri artıq rəqəmsallaşdırılıb. Mütəxəssislər bu bazadan istifadə edərək interpretasiya proqram təminatı vasitəsilə yataqların modelini qura bilirlər. Qazma prosesinə real vaxt rejimində nəzarət etməklə istənilən quyunun dərinliyi, baltaya düşən yük, təzyiq, vurulan məhlulun həcmi və digər qazma parametrlərini əldə etmək mümkündür. Neft-qaz hasilatı, emal və qazın nəqli kimi digər sahələrdə də rəqəmsal sistemlər tətbiq olunur. Əməliyyatların rəqəmsal modellər vasitəsi ilə idarə olunması, müxtəlif cihazlara real vaxt rejimində və vahid nöqtədən nəzarət etmək imkanları şirkətin əməliyyat effektivliyini gücləndirir. Dəniz özüllərində və digər istehsal sahələrində quraşdırılmış videomüşahidə vasitələri vəziyyətin mütəmadi olaraq vizual nəzarətdə saxlanılmasına imkan yaradır, baş verə biləcək fövqəladə halların daha effektli idarə olunması təmin edilir.

Müxtəlif fəaliyyət sahələrini idarə edən rəqəmsal sistemlər yeni yaradılmış Vizualizasiya Mərkəzində inteqrasiya olunub. Bu isə məlumatların vahid mənbədən əldə edilərək təkrarlanmaması və təhrif olunmaması, qərarların operativ şəkildə verilməsi üçün əlverişli zəmin yaradır.

SOCAR-ın Müşahidə Şurasının sədri M.Cabbarov Vizualizasiya Mərkəzi ilə bağlı deyib: "Bu gün açılışında iştirak etdiyimiz mərkəzin fəaliyyətə başlaması ilə bağlı SOCAR-ın rəhbərliyinə və kollektivinə öz təbriklərimi çatdırıram. Yeni rəqəmsal məlumat bazaları həm şirkətdə gündəlik idarəetmənin optimallaşdırılması, həm də mümkün fövqəladə vəziyyətlərə qarşı reaksiyanı təmin etmək üçün yeni imkanlar yaradır. SOCAR-ın əməkdaşlarına bu fəaliyyətlərdə uğurlar arzu edirəm".

Tədbirdə qeyd olunub ki, yaxın aylarda Böhran Vəziyyətləri və Fövqəladə Halların İdarə edilməsi üzrə SOCAR-ın Korporativ Planı əsasında Vizualizasiya Mərkəzində intensiv təlim-məşqlərin keçirilməsi nəzərdə tutulur. Bu plan fövqəladə hallar zamanı ölkədaxili və xarici əməliyyatların idarə edilməsini, strateji cavab tədbirlərinin təşkilini, müşahidə və nəzarət altında saxlanılmasını, eləcə də digər idarəetmə həllərini özündə birləşdirir.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev açılış tədbirində çıxış edərək deyib: "Ulu Öndər Heydər Əliyevin bəyan etdiyi "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır" prinsipinə əsaslanan SOCAR-ın SƏTƏMM siyasəti eyni zamanda baş verə biləcək hər hansı böhran vəziyyətinə və fövqəladə hallara da daima hazırlıqlı olmağı nəzərdə tutur. Bunun üçün bir çox layihələr işlənilir və əməkdaşlıq razılaşmaları əsasında tərəfdaşlarla təcrübə mübadilələri aparılır. Şirkətimizdə Sənaye 4.0 tələblərinə uyğun olaraq, əməliyyat effektivliyinin artırılması, fövqəladə halların baş verməməsi diləkləri ilə mərkəzin fəaliyyətinə uğurlar arzulayıram".

Qeyd edək ki, Vizualizasiya Mərkəzinin yaradılması dünya neft-qaz sənayesindəki aparıcı şirkətlərin təcrübəsinə əsasən həyata keçirilib, mərkəz qabaqcıl texnoloji avadanlıqla təchiz edilib. Norveçin "Equinor" şirkəti ilə əməkdaşlıq sazişi çərçivəsində növbəti aylarda SOCAR-ın korporativ SƏTƏMM sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılması və inkişaf etdirilməsi məqsədilə müasir tələblərə cavab verən təlim-məşqlərin təşkil olunması nəzərdə tutulur.

# Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq dostluq və qardaşlıq münasibətləri üzərində qurulub

Aprelin 9-da müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Azərbaycanda diplomatik fəaliyyəti başa çatan fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi və ölkələrimiz üçün faydalı olduğu vurğulanıb. Səfirlə əvvəlki görüşlərini xatırlayan müdafiə naziri ölkələrimiz arasında əlaqələrin inkişafına verdiyi töhfəsinə görə diplomata təşəkkür edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səfir görüşə görə minnətdarlığını ifadə edərək, ölkəmizdən xoş təəssüratlarla ayrıldığını, Azərbaycan dövlətinin və xalqının daim səmimi dostu olaraq qalacağını vurğulayıb.

# Təhsil nazirinin rektorlarla onlayn görüşü

Aprelin 8-də təhsil naziri Emin Əmrullayev ali təhsil müəssisələrinin rəhbərləri ilə onlayn formatda görüş keçirib.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə ali təhsil müəssisələrində çalışan professor-müəllim və inzibati heyətin vaksinasiya prosesinin səmərəli həyata keçirilməsi, pandemiya dövründə tədrisin təşkili, eləcə də universitetlərin elm və tədqiqat sahəsində inkişaf planları barədə müzakirələr aparılıb.

Həmçinin universitetlərin elmi potensialının artırılması və ali təhsilin müxtəlif səviyyələrində davamlı keyfiyyətli təhsilin təmin edilməsi ilə bağlı fikir mübadiləsi həyata keçirilib.

# Azərbaycan və Rusiya baş prokurorlarının görüşündə hüquqi sahədə əməkdaşlığın aktual məsələləri müzakirə olunub

Rusiya Federasiyasının baş prokuroru İqor Krasnovun Azərbaycana səfəri davam edir.



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib. Görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçıları İlham Əliyev və Vladimir Putinin birgə səyləri və siyasi iradələri sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyi xüsusilə qeyd olunub.

Dövlətlərimiz və xalqlarımız arasında zəngin tarixə malik və ildən-ilə daha da dərinləşən münasibətlərin, o cümlədən hüquqi sahədə əlaqələrin getdikcə inkişaf etdiyini qeyd edən baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsindən qaynaqlanan və dövlət başçısının rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, sosial-iqtisadi sahədə və məhkəmə-hüquq sistemində aparılan islahatlar, o cümlədən səmərəli dövlət idarəetməsi, əhalinin həyat səviyyəsinin və sosial rifahının yüksəldilməsi üzrə tədbirlər və əldə olunmuş nailiyyətlər barədə geniş məlumat verib.

Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış qələbə ilə bağlı qonağa məlumat verərkən Azərbaycan-Ermənistan münasibətlərinin nizama salınması istiqamətində Rusiya dövlətinin sülhməramlı qismində gördüyü işlərin təqdirəlayiq olduğunu qeyd edərək, Rusiyanın Azərbaycan və Ermənistan arasında balanslaşdırıcı mövqedən çıxış etməsinin regionda sülhün əbədi bərqərar olmasına xidmət edəcəyinə əminliyini bildirib.

Baş prokuror Kamran Əliyev ötən illər ərzində prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, gənc hüquqşünaslardan ibarət kadr korpusunun formalaşdırılması istiqamətində aparılan mütərəqqi işlər, korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi üçün digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqələr barədə qonaqları məlumatlandırıb.

Həmçinin Azərbaycan və Rusiya prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayan baş prokuror bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb. Habelə digər hüquq mühafizə orqanları ilə birgə qarşılıqlı fəaliyyət nəticəsində ölkəmizin MDB məkanında cinayətlərin sayına görə ən müsbət göstəricilərə malik olduğu diqqətə çatdırılıb.

Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Rusiya Federasiyasının baş prokuroru İqor Krasnov göstərilən yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirib. İki dost və tərəfdaş dövlətin prokurorluq orqanları arasında uzunmüddətli sıx əlaqələrin olduğunu diqqətə çatdıran qonaq respublikamızın qısa zamanda bir çox sahələrdə mühüm uğurlar qazanmasının canlı şahidi olduğunu qeyd edərək, xüsusilə prokurorluq orqanlarının müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin təqdirəlayiq olduğunu vurğulayıb.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb, iki ölkənin hüquq mühafizə, o cümlədən prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, eləcə də cinayət törətmiş şəxslərin ekstradisiyası və sair məsələlər müzakirə olunub.

Baş prokurorlar əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Rusiya Federasiyasının Baş Prokurorluğu arasında əməkdaşlığın inkişaf etdirilməsi haqqında" niyyət bəyanatı imzalayıblar.

Səfər çərçivəsində nümayəndə heyəti İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olub. Daha sonra Heydər Əliyev Mərkəzinə gedən qonaqlara orada yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Bununla da Rusiya Federasiyasının baş prokuroru İqor Krasnovun ölkəmizə rəsmi səfəri başa çatıb və nümayəndə heyəti Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola salınıb.

# İslam dünyası İlham Əliyevin Qələbəsini təqdir edir

## Azərbaycan Ermənistanın işğal siyasətinə son qoymaqla həm də müsəlman aləminin mədəni-dini irsini xilas etdi

***Əvvəli 1-ci səh.***

Bu müharibədə Azərbaycanın haqq işini dəstəkləyən dövlətlərdən biri də İtaliya oldu. Vətən müharibəsi dövründə İtaliya Azərbaycanla həmrəy olduğunu göstərdi, bu ölkənin mediası əsl həqiqətləri obyektiv işıqlandırdı. İtaliyanın bir çox bələdiyyələri Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət və Azərbaycan-İtaliya çoxölçülü strateji tərəfdaşlığının daha da gücləndirilməsinə çağırış edən sənədlər qəbul etdilər. Bütün bunlar İlham Əliyevin mütərəqqi xarici siyasətinin göstəriciləridir.

### İƏT Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəklədi

Uğurlu siyasi-diplomatik fəaliyyətin nəticəsidir ki, Azərbaycanın fəal iştirak etdiyi beynəlxalq təşkilatlar da ölkəmizin haqq işini qətiyyətlə müdafiə edirlər. Əvvəldə qeyd edildiyi kimi hələ oktyabr ayında Qoşulmama Hərəkatına üzv olan dövlətlər BMT TŞ-də Azərbaycanın maraqlarına cavab verməyən qətnamənin qəbulunun qarşısını almışdılar.

İslam Əməkdaşlıq Təşkilatı Dağlıq Qarabağ münaqişəsi zamanı ölkəmizin haqlı mövqeyini daim dəstəklədi. Təşkilatın bu məsələ ilə bağlı mövqeyi bütün platformalarda səsləndirildi. Bu mövqe 44 günlük Vətən müharibəsi dövründə də dəyişmədi. Bu, təkcə din birliyi ilə bağlı deyil, eyni zamanda Azərbaycanın haqlı mövqeyindən irəli gəlir. Bir neçə gün əvvəl İƏT-in Təmas Qrupunun üzvlərinin Gəncəyə və işğaldan azad olunmuş ərazilərə səfəri də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Təəssüratlardan bir daha aydın oldu ki, İslam Əməkdaşlıq Təşkilatı 30 ilə yaxın müddətdə Azərbaycana məxsus ərazilərin işğal altında qalmasını pisləyir.

Bu günlərdə Azərbaycana səfər edən İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymin Prezident İlham Əliyevlə görüşdə qurumun bu mövqeyini bir daha ifadə etdi: *"Cənab Prezident, bu böyük Qələbə münasibətilə Sizi təbrik edirəm. Bu, yalnız Sizin deyil, bizim də qələbəmizdir və biz çox xoşbəxtik. Mən Sizin liderliyinizi və səbir nümayiş etdirməyinizi təqdir edirəm. Siz 30 il ərzində torpaqların işğalı məsələsində təmkinlə davrandınız, bunun başqa bir ölkədə ola biləcəyinə inanmıram. Sizin məsələniz haqq işi idi - torpaqlar sizin idi, beynəlxalq hüquq tərəfinizdə idi, İslam Əməkdaşlıq Təşkilatı yanınızda idi və onun qətnamələri sizi dəstəkləyirdi".*

Ermənistanın işğalçılıq siyasəti yalnız Azərbaycana deyil, bütün müsəlman dünyasına qarşı yönəlmişdi. Çünki 30 ilə yaxın işğal dövründə Ermənistanın dağıtdığı və erməniləşdirilməsinə cəhd etdiyi bütün tarixi və dini abidələr həm də İslam irsinin tərkib hissəsidir. Bu baxımdan Azərbaycan erməni faşizminin qarşısını almaqla müsəlman dünyası qarşısında tarixi xidmət göstərdi. Təkcə özünün deyil, bütün İslam dünyasının dəyəri olan mədəni və dini irsi müdafiə etdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə ordularının birgə əməliyyat-taktiki təlimləri başa çatıb



**Ölkəmizdə keçirilən Azərbaycan və Türkiyə ordularının əməliyyat-taktiki təlimləri başa çatıb.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birgə təlimlərdə Azərbaycan və Türkiyə ordularının əməliyyat bölmələrinin qarşılıqlı fəaliyyəti təkmilləşdirilib, əməliyyat bölmə komandirlərinin hərbi qərar qəbuletmə, təşəbbüs göstərmə və idarəetmə bacarıqları inkişaf etdirilib.



# Bakıda Türk Şurasının İnformasiya və media sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunun iclası keçirilib

**Aprelin 9-da Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) informasiya və media üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin üçüncü toplantısı çərçivəsində İnformasiya və media sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunun iclası işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) baş katibinin müavini Qismət Gözəlov çıxış edərək toplantının Qarabağ Zəferindən sonra nazirlər səviyyəsində Bakıda keçirilən ilk tədbir olduğunu bildirib.

Q.Gözəlov qeyd edib ki, ortaq tarixi və mədəni irsimizin dünyada tanıdılmasında medianın xüsusi önəmi var. Buna görə də qarşıdakı illərdə media sahəsində əməkdaşlığı daha da inkişaf etdirməyi hədəfləyirik. Bu istiqamətdə bir sıra layihələrin həyata keçirilməsi planlaşdırılır.

Sonra işçi qrupun üzvləri 2021-2022-ci illər üçün fəaliyyət planı ilə bağlı təkliflərini təqdim ediblər. Tədbir çıxışlarla davam edib və bir sıra təkliflər səsləndirilib.

# FHN-in Dövlət Yanğın Nəzarəti Xidməti Şuşa şəhərində maarifləndirmə tədbiri keçirib

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Qarabağ regional Dövlət Yanğın Nəzarəti İdarəsi 8 aprel 2021-ci il tarixində Şuşa şəhərində yerləşən hotel binasında yenidənqurma işləri aparan müəssisənin əməkdaşları üçün yanğın təhlükəsizliyinə dair maarifləndirmə tədbiri keçirib.



Tədbirdə yanğın təhlükəsizliyi qaydaları, o cümlədən tikinti-quraşdırma, xüsusilə qaynaq və metalkəsmə işləri görülən zaman zəruri olan müvafiq təhlükəsizlik tədbirləri barədə məlumat verilib, suallar cavablandırılıb. Həmçinin iştirakçılara ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani nümayiş etdirilib, yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasının daim diqqətdə saxlanılmasının vacibliyi məsul şəxslərin nəzərinə çatdırılıb.

# Fövqəladə Hallar Nazirliyi gözlənilən küləkli hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, aprelin 9-dan 10-na keçən gecədən başlayaraq ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, güclü külək əsəcəyi gözlənilir.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, gözlənilən güclü küləkli hava şəraiti ilə əlaqədar nazirlik əhaliyə müraciət edərək, ciddi zərurət olmadan küçəyə çıxmamağı tövsiyə edir.

Bununla yanaşı, əgər güclü külək insanları küçədə haqlayıbsa, yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəkləri və naqillərinin, hündür ağacların altında dayanmamaq məsləhət görülür. Bu zaman diqqətli hərəkət edərək yaxınlıqdakı binanın zirzəmisində və ya möhkəm tikilidə daldalanmağa çalışmaq lazımdır.

Həmçinin güclü külək zamanı xüsusilə açıq hava şəraitində baş verən yanğınların söndürülməsinin mürəkkəbliyi nəzərə alınaraq, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməsi tövsiyə olunur.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı "112"yə zəng edin!

# Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Ramazan ayı ilə bağlı fətva verib



**Aprelin 9-da Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Qazılar Şurasının növbəti iclası keçirilib.**

İdarənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadənin sədrliyi ilə onlayn formatda keçirilən iclasda Ramazan ayının başlanması ilə əlaqədar fətva müzakirə olunub.

İclasda Qafqaz Müsəlmanları İdarəsinin sorğusuna cavab olaraq, Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının direktoru, AMEA-nın müxbir üzvü Namiq Cəlilovun imzası ilə Şeyxülislam Allahşükür Paşazadənin ünvanına daxil olan məktubun mətni oxunub. Məktubda deyilir: “Məlumat üçün bildirmək istərdik ki, Sizə təqdim olunmuş 1442-1443-cü hicri-qəməri (2021-ci il miladi) təqvim layihəsində tərəfimizdən təkrar aparılmış araşdırma nəticəsində Azərbaycan ərazisində təzə Ayın (hilalın) görünməsi 13 aprel tarixində baş verdiyindən Ramazan ayının 2021-ci il 14 aprel tarixindən başlanması təsdiqlənmişdir. Odur ki, 2021-ci il 14 aprel tarixini Ramazan ayının birinci günü kimi qəbul etməyinizi ali diqqətinizə çatdırıram”.

QMİ-nin Qazılar Şurası Ramazan ayının başlanması ilə əlaqədar fətva qəbul edib. Fətvada deyilir: “Müqəddəs Kitabımız “Qurani-Şərif”də Allah-Təala bizlərə buyurur: “Sizlərdən (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutsunlar...” (Bəqərə,185). Aləmlərə rəhmət, möminlərə mərhəmət olan Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayının başlanması münasibətilə dünya müsəlmanlarını, o cümlədən ölkəmizdəki müsəlman qardaş və bacılarımızı təbrik edir, Allah-Təaladan ibadətlərimizin və dualarımızın qəbul olunmasını diləyirik.

Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının Qafqaz Müsəlmanları İdarəsinin sorğusuna cavab olaraq, daxil olan məktubuna əsasən, bildiririk ki, bu il üfüqümüzdə Hilalın (təzə Ayın) aprelin 13-ü Şam namazı ərəfəsində görünəcəyinə görə Ramazan ayının 1-i miladi təqvimlə 2021-ci il 14 aprel tarixinə təsadüf edəcək.

Möhtərəm qardaş və bacılar! Biz bu ilin Ramazan ayına qalib xalq, 30 illik işğala son qoymuş Vətən müharibəsində Zəfər çalmış millət kimi qədəm qoyuruq. Bizə bu səadəti yaşatdığına görə Azərbaycan dindarları Azərbaycan Ordusunun gücünə, Azərbaycan xalqının sarsılmaz həmrəyliyinə, dövlət-xalq birliyinə güvənən Müzəffər Sərkərdə, Ali Baş Komandan İlham Əliyevə hər zaman dualar, qələbələrimiz üçün Uca Allaha həmd-sənalar edirlər. Vətən uğrunda canını fəda etmiş qəhrəman şəhidlərimizə Allah-Təaladan rəhmət, qazilərimizə şəfa diləyirik. Ərazi bütövlüyümüzün bərpa olunması, əzəli torpaqlarımıza böyük qayıdışın təmin edilməsi, viran qoyulmuş ərazilərimizə yeni nəfəs verilməsi, Qarabağda müasir, yüksək səviyyədə həyat şəraitinin qurulması və vandalizmə məruz qalmış dini məbədlərin, o cümlədən məscidlərin bərpası istiqamətində fövqəladə zəhmətlərinə görə Müzəffər Liderimiz Zati-aliləri Prezident İlham Əliyevə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Azərbaycan dindarları adından dərin minnətdarlığımızı bildirir və onlar üçün xeyir-dualar edirik.

Biz builki Ramazan ayına bütün dünyada hələ də səngiməyən virus təhlükəsi şəraitində daxil oluruq. İnsan sağlamlığına ciddi təhlükə, ölümcül təhdid olan bu bəlanın aradan qaldırılması yönündə dövlətimizin böyük səylə çalışdığı bir zamanda biz, din xadimləri dövlətimizin insan həyatının qorunması məqsədilə həyata keçirilən vaksinləşmə tədbirlərini dəstəkləyirik. Vaksinləşmə özümüzün və ətrafımızdakıların səhhəti baxımından həyati zərurət daşıyan vacib addım, şəriət baxımından məqbul əməldir. Bu caiz məqamın reallaşmasında fəal iştirak edən biz, din xadimləri öz nümunəmizlə bütün dindarları bu mühüm kampaniyada iştiraka dəvət edirik. Ramazan ayı boyunca bu mühüm proses davam etməlidir. Yüksək din alimlərinin rəyinə görə, Ramazan ayı boyunca oruclu şəxsin vaksin vurdurması orucu batil etmir.

Yoluxmaların artma təhlükəsi olduğundan xüsusi karantin rejimi dövründə adət-ənənələrimizə söykənən kütləvi dini mərasimlərin müvəqqəti olaraq keçirilməməsini tövsiyə edir, iftar süfrəsinin hər bir evdə yalnız ailə üzvlərinin iştirakı ilə açılmasına çağırırıq. Bir daha bildiririk ki, bütün bu tövsiyələr hazırda tüğyan edən xəstəlik səbəbindən müvəqqəti səciyyə daşıyır.

Bəzi hədisi-şəriflərdə qeyd olunur ki, Allah orucu zənginlər imkansızların halından xəbərdar olsunlar deyə vacib buyurub. Orucluqda iftar süfrələri açmağı niyyət etmiş şəxslərin bunun əvəzinə yardım göstərməsi, həmin vəsaitin imkansız və ehtiyacı olan insanlara xeyriyyə məqsədilə sərf edilməsi daha məqbul və savab olub, orucun fəlsəfəsinə uyğundur.

Oruc ibadətini hökm edən Mərhəmətli və Rəhim Allah buyurur ki, səfərdə və ya xəstə olan insanların oruclarını başqa vaxtda tutmaları məqsədəuyğundur. Bu şəxslər sağaldıqdan sonra sağlam halda gələn Ramazana kimi öz orucluq ibadətlərini tamamlaya bilərlər.

Orucluq ibadəti yardımlaşmanı artıran, daxili dəyanəti gücləndirən, insan səhhətinə müsbət təsir göstərən ilahi qüvvəyə malikdir. Mərhəmət və şəfqət ayı olan müqəddəs Ramazan ayı ərzində xeyriyyə əməlləri, ehtiyacı olanlara, kimsəsiz insanlara, uşaq evlərinə, ahıl və qocalara imkan daxilində kömək etmək Allah nəzərində bəyənilən əməllərdəndir. Bu ayda ən böyük savab - daha çox ibadət etmək, Quran tilavəti, valideynlərin qayğısına qalmaq, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm, irfanla məşğul olmaqdır. Uca Allaha təvəkkül edərək özümüzü, yaxınlarımızı qorumalı, əməl, dua və ibadətlərimizlə salamatlığın bərqərar olmasına nail olmalıyıq.

Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi mübarək Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib edib. Bu təqvim İdarəmizin internet saytında (www.qafqazislam.com) yerləşdirilib. Biz xalqımıza təqvimin internet versiyasından istifadəni tövsiyə edirik. Digər mənbələrdən daxil olan, təfriqə xarakterli, məzhəb və vaxt ayrı-seçkiliyinə səbəb ola biləcək təqvimlərin din xadimləri və dindarlar tərəfindən istifadəsi qeyri-məqbuldur. Bütün kütləvi informasiya vasitələrindən məhz QMİ-nin təqviminə istinad etmələri xahiş olunur.

Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Qazılar Şurasının qənaətinə görə, adambaşına 5-10 manat arası fitrə zəkatının verilməsi məsləhət görülür. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir.

İnşallah, Eydül-Fitr-Ramazan bayramı şəvval ayının 1-i Ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq may ayının 13-nə təsadüf edəcəkdir. Qazılar Şurası xalqımıza tövsiyə edir ki, bu əziz, mübarək günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarını fəda edən qəhrəman şəhidlərin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun. Duaların qəbul olunduğu mübarək Ramazan ayında Azərbaycan dindarları dövlət rəhbərliyinin - Azərbaycan Prezidenti İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dövlətçiliyimizin uğurları yönündə fədakar fəaliyyətinə, hökumətimizin misilsiz səylərinə Uca Allahdan rəvac diləyirlər. Qadir Allah doğma Azərbaycanımızı qorusun, bütün bəlalardan hifz etsin, rifah və tərəqqimizə rəvac versin!

Allah oruc və namazlarınızı qəbul etsin, bizləri məğfirət və mərhəmətinə nail olan bəndələrindən qərar versin. Amin!”

İclas cari məsələlərin müzakirəsi ilə işini davam etdirib.

# Türk Mədəniyyəti və İrsi Fondunda “Tanrının səsini eşitmək istəyirəm” şeir toplusunun təqdimat mərasimi keçirilib








Türk Mədəniyyəti və İrsi Fondunda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın qırğız və rus dillərində nəşr olunmuş “Tanrının səsini eşitmək istəyirəm” şeir toplusunun təqdimat mərasimi keçirilib.

Tədbirdə mədəniyyət naziri Anar Kərimov, Qırğız Respublikasının mədəniyyət, informasiya idman və gənclər siyasəti naziri Kayrat İmanaliyev, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və digər qonaqlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, mərasimi açan Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qonaqları salamlayaraq təqdimatı keçirilən kitabın məziyyətlərindən söz açıb. Bildirib ki, Leyla Əliyeva gənc olmasına baxmayaraq, çoxşaxəli istedada malik insandır. O, bir tərəfdən gözəl, səmimi, romantik, incə ruhlu şeirlərin müəllifi, digər tərəfdən maraqlı rəssamdır. Onun bir çox şəkilləri sərgilərdə nümayiş olunub. Qeyd edilib ki, Leyla Əliyeva Azərbaycanın ictimai həyatında özünəməxsus yer tutur. Bunların hamısını birləşdirsək, deyə bilərik ki, o, incə bir ürəyin sahibidir və bu, onun şeirlərində də hiss olunur.

Günay Əfəndiyeva kitabın Qırğızıstanda da çap olunduğunu söyləyib. Bildirib ki, Qırğızıstanda bu kitabın çap olunması qırğız oxucusunu müasir Azərbaycan poeziyasının nümunələri ilə tanış edir. Fondun da bu səpkidə fəaliyyəti iki xalqı bir-birinə yaxın etməkdən ibarətdir. Mədəniyyət naziri Anar Kərimov çıxışında qeyd edib ki, Leyla Əliyevanın müraciət etdiyi həssas mövzular və onun bədii təxəyyülü oxucusunu duyğulandırır, eyni zamanda düşündürür. Leyla Əliyevanın yaradıcılığında əsl Azərbaycan qadınının, əsl türk xanımının duyğuları, hissləri, emosiyası müşahidə olunur.

Bildirilib ki, Prezident İlham Əliyevin sərəncamı ilə bu il Azərbaycanda “Nizami Gəncəvi ili” elan edilib və bu, təkcə ölkəmiz üçün deyil, bütün türkdilli xalqlar da daxil olmaqla, dünya ədəbi irsi ilə bağlı mühüm əhəmiyyət kəsb edir. Çünki dahi Nizaminin yaradıcılığı türk-islam bədii təxəyyülünün ən parlaq nümunələrindən hesab olunur. Qeyd edilib ki, ötən ay Türkiyə Respublikasına səfər çərçivəsində həm TÜRKSOY-un Baş qərargahında, həm də İstanbul şəhərində dahi Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunan tədbirlər təşkil edilib. Türk dövlətlərində, xüsusən də beynəlxalq təşkilatlar çərçivəsində bu cür tədbirlərin təşkili ortaq mədəni-mənəvi dəyərlərimizin təbliği baxımından müstəsna əhəmiyyət daşıyır.

“Türk xalqlarının ortaq mədəni-mənəvi dəyərlərinin qorunub saxlanması və geniş miqyasda tanıdılması sahəsində yarandığı vaxtdan etibarən TÜRKSOY-un böyük əməyi olub. Türk Mədəniyyəti və İrsi Fondu da öz tərəfindən qısa zaman ərzində türk dünyasının mədəniyyətini, zəngin tarixini, milli-mənəvi dəyərlərini təbliğ edən müxtəlif layihələrə imzalar atıb”, - deyə nazir vurğulayıb.

Qırğız Respublikasının mədəniyyət, informasiya idman və gənclər siyasəti naziri Kayrat İmanaliyev deyib: “Leyla Əliyeva qələmə aldığı hər mövzuya özünəməxsus şair baxışı ilə yanaşa, predmeti azad baxışlarla poeziyaya çevirə bilir. Gənc şairə təbiətə qarşı həssas hisslər nümayiş etdirir, gerçəkliklə zəngin bir xəyal arasında harmoniya yaratmağı bacarır. Dünyaya şair baxışı ilə baxaraq qitələri, meşələri, dağları, çayları, gölləri adlayır, həyəcan və hisslərini ustalıqla ifadə edir, oxucu ilə səmimi ünsiyyət mühiti yaradır”.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva isə bildirib ki, Leyla Əliyevanın yaradıcılığına yaxından bələddir: “Şairlər olduğu kimi görünməli, göründüyü kimi də olan insanlardırlar. “Göründüyün kimi ol, olduğun kimi görün” düşüncəsi Leyla Əliyevanın elə şəxsiyyətində bütövləşib. Çünki şairlərin digər insanlardan fərqi ondadır ki, hər bir şair və ya yazıçı öz ağrı-acısı ilə bərabər, başqasının da acılarını hiss edir, özünün acısı kimi içərisindən keçirir. Leyla Əliyevanın yaradıcılığı, onun ruhu onun əməllərindədir”, - deyə Q.Paşayeva vurğulayıb.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibinin müavini Sultanbek Raev bildirib ki, Leyla Əliyevanın “Tanrının səsini eşitmək istəyirəm” şeir toplusunu qırğız dilinə tanınmış şairlər tərcümə edib: “İnsana elə gəlir ki, müəllif bu kitabda Allaha müraciət edir. Çünki hər bir insan qəlbində Uca Tanrının yeri olduğu üçün onun səsini eşitmək istəyir. Allahın səsi ifadəsi ilə müəllif sanki insanlarda ən ülvi hissləri oyatmağa çalışıb”.

Sonra Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Baş katibinin müavini Əli Yıldız, Azərbaycan Yazıçılar Birliyinin üzvü, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid çıxış edərək kitabla bağlı fikirlərini bölüşüblər.

Sonda tədbirin bədii hissəsində Xalq artisti Mehriban Zəkinin və Qırğızıstanın Xalq artisti Tinar Abdrazayevanın ifalarında “Tanrının səsini eşitmək istəyirəm” kitabından şeirlər səsləndirilib.

# Azərbaycanda koronavirusa 2206 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından 1578 nəfər müalicə olunaraq sağalıb, 2206 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 35 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 281 min 387 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 247 min 459 nəfər müalicə olunaraq sağalıb, 3846 nəfər vəfat edib. Aktiv xəstə sayı 30082 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 990 min 285 test aparılıb. Dünənki test sayı isə 12692-dir.




# «Kitabi-Dədə Qorqud: yazılı epos və ya epopeya» monoqrafiyası çap olunub

**AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin “Kitabi-Dədə Qorqud: yazılı epos və ya epopeya” monoqrafiyası “Elm” nəşriyyatında çap olunub. İsa Həbibbəyli “Kitabi-Dədə Qorqud: yazılı epos və ya epopeya” monoqrafiyasında ilk dəfə olaraq bu məşhur Azərbaycan Oğuznaməsindən ədəbiyyatımızın ortaq başlanğıc dövründə canlı ifadə və şifahi yaddaş əsasında yaradılmış yazılı ədəbiyyat abidəsi kimi bəhs etmişdir.**

Monoqrafiyada İsa Həbibbəyli “Kitabi-Dədə Qorqud”la bağlı aparılmış tədqiqatlardan söz açaraq, bu möhtəşəm ədəbi abidənin Azərbaycan yazılı ədəbiyyatının başlanğıcı olması tezisini tutarlı faktlarla isbat etmişdir. Bu məqsədlə “Kitabi-Dədə Qorqud”un adındakı “kitab” sözünün mahiyyəti aydınlaşdırılmış, eposun şifahi xalq ədəbiyyatı ənənəsində olduğu kimi çoxvariantlı deyil, təkvariantlı olması nəzərə çatdırılmış, Dədə Qorqudun tarixdə yaşamış şəxsiyyət olması müəyyən edilmişdir. Həmçinin müəllif “Kitabi-Dədə Qorqud”da Azərbaycan və türk folklorunda sələfi olmayan və ilk dəfə bu eposda təqdim edilən obrazların olması da həmin oğuznamənin yazılı ədəbiyyatın yaranma prinsiplərinə uyğun gələn xüsusiyyəti kimi diqqətə çatdırmışdır.




Akademik İsa Həbibbəyli Dədə Qorqudu Azərbaycan ədəbiyyatının Homeri adlandırmış, Azərbaycan oğuznaməsini “İlliada” və “Odisseya” ilə müqayisə etmişdir. Beləliklə, ilk dəfə “Dədə Qorqud” eposundan epopeya kimi bəhs edilmişdir.

Monoqrafiyada “Kitabi-Dədə Qorqud”un əlyazma nüsxələri haqqında geniş məlumat verilmiş, boyların ideya-sənətkarlıq xüsusiyyətləri müasir təfəkkür işığında yenidən şərh olunmuşdur. Həmçinin “Kitabi-Dədə Qorqud”un poetikası sistemli şəkildə təhlil edilmiş, boylardakı boylama (təhkiyə) və soylamaların (tərənnüm üsullarının) xüsusiyyətləri izah olunmuş, Dədə Qorqud şeirinin janrları və bənzərsiz məcazlar sistemi müəyyənləşdirilmişdir. Müəllif “Kitabi-Dədə Qorqud”u Azərbaycan xalqının Ata kitabı adlandırmışdır.

Xalq yazıçısı Anarın kitaba yazdığı “Ədəbiyyat tariximizin Dədəsi” adlı ön sözdə İsa Həbibbəylinin irəli sürdüyü müddəalar və gəldiyi nəticələr aşağıdakı kimi dəyərləndirilmişdir: “Tapılmış dəlil-sübutlar “Kitabi-Dədə Qorqud”un Homersayağı şifahi şəkildə yazılmış ilk yazılı abidəmiz olmasına haqq qazandırır. Bütün bunlardan sonra İsa Həbibbəylinin “Kitabi-Dədə Qorqud”un janrını təyin etməsi, bu abidəni roman-epopeya adlandırması da əsaslı görünür”.

Kitabın üz qabığında AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı, Əməkdar mədəniyyət işçisi Seyfəddin Məmmədvəliyevin ağac üzərində ərəb əlifbası ilə “Dədə Qorqud” sözləri yazılmış xəttatlıq sənəti nümunəsinin fotosurəti əks olunub. Giriş, dörd fəsil və nəticədən ibarət olan 280 səhifəlik monoqrafiyada rus dilində irihəcmli xülasə verilmişdir. Monoqrafiyanın məsul redaktorları filologiya üzrə fəlsəfə doktorları İsmixan Osmanlı və Aygün Bağırlıdır.

***Y.MUSAYEVA, “Azərbaycan”***

# Azərbaycan vaksinasiyada əksər ölkələri qabaqlayır

*Əvvəli 1-ci səh.*

Prezident vurğulayıb ki, Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib.

Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının pandemiya ilə mübarizə mövzusunda dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının uğurla keçirilməsi, martın 23-də BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə “COVID-19 əleyhinə peyvəndlərə bərabər, münasib qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi” adlı qətnamənin qəbul edilməsi də ölkəmizin qlobal həmrəyliyin möhkəmlənməsinə verdiyi uğurlu töhfələrdən biridir.

Eyni zamanda Azərbaycan ÜST-ə 10 milyon dollar məbləğində könüllü ianə verib və bu vəsaitin 5 milyonu Qoşulmama Hərəkatına üzv olan kasıb ölkələrə ayrılıb. Həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərilib.

## Pandemiya ilə mübarizənin Azərbaycan modeli

Azərbaycan pandemiya ilə mübarizədə ilk günlərdən qabaqlayıcı tədbirlər görən azsaylı nümunəvi ölkələr sırasındadır. Koronavirusun ortaya çıxdığı ilk zamanlardan etibarən ona qarşı operativ şəkildə qabaqlayıcı tədbirlər həyata keçirilən ölkəmizdə dərhal səhiyyə sisteminin virusla mübarizəyə istiqamətləndirilməsi pandemiyanın fəsadlarının minimuma endirilməsində mühüm rol oynayıb. Qısa müddətdə 40 min çarpayı potensialı olan xəstəxanalar hazır vəziyyətə gətirilib, 13 modul tipli xəstəxana inşa edilib, gündə 20 min test keçirilə bilən 42 müasir laboratoriya fəaliyyətə başlayıb.

Ölkəmizdə yoluxmanın erkən aşkarlanması üçün xeyli sayda testin aparılması, koronavirusa yoluxmuş bütün xəstələrin xəstəxana şəraitində yüksək səviyyədə müalicə edilməsi və bu istiqamətdə görülən kompleks tədbirlər sağalanların sayını çoxaldıb. Virusa yoluxma dinamikası nəzərə alınaraq mərhələli şəkildə həyata keçirilən sərtləşdirmə və yumşaldılma tədbirləri öz bəhrəsini verib, COVID hər zaman nəzarətolunan səviyyədə saxlanılıb.

## Vaksinasiyada fəal iştirak etmək hər bir vətəndaşın borcudur

Amma bütün dünyada olduğu kimi, son zamanlar COVID-19-a yoluxma Azərbaycanda da artıb. Eyni zamanda ölkəmizdə virusun daha sürətli yayılan Britaniya ştammına yoluxma da qeydə alınıb. Elə bu səbəbdəndir ki, bəzi şəhər və rayonlarda orta məktəblərdə əyani tədris dayandırılaraq onlayn formada tədris aparılır. Yoluxmanın bu tempdə davam edəcəyi təqdirdə qarşıda yeni məhdudiyyətlərin tətbiq olunacağı da şübhə doğurmur.

Amma bütün bunların qarşısını almaq mümkündür. Mütəxəssislərin də vurğuladığı kimi, koronavirusla ən güclü mübarizə maska taxmaq, sosial məsafə saxlamaq və gigiyenik qaydalara əməl etməklə yanaşı, vaxtında virus əleyhinə peyvəndləmənin aparılmasıdır. Bu bir reallıqdır ki, virusun geniş yayılmasının qarşısının alınması və insanların xəstəliyin ağır gedişindən qorunması üçün ən effektiv üsul peyvənddir. Vaksinin əsas üstünlüyü odur ki, COVID-19-a yoluxan zaman xəstə reanimasiyaya düşmür, yəni ağırlaşma halları gözlənilmir. Lakin vaksinasiyadan keçən şəxslərin də tibbi maskadan istifadə etmələri və özlərini COVID-dən qorumaları vacibdir.

Koronavirusu həyatımızdan birdəfəlik çıxarmaq, onun təhlükəsindən uzaq olmaq üçün vaksinasiya prosesində fəal iştirak etmək hər bir vətəndaşın borcudur. Biz yalnız bunun sayəsində virusa qalib gələ bilərik.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

# AÇG və "Şahdəniz": sərvətləri bol, gəlirləri çox



Əvvəli 1-ci səh.

Azərbaycan dünyanın ən nəhəng karbohidrogen yataqlarından olan "Şahdəniz"in sayəsində qaz ixrac edən ölkə kimi tanınıb.

Prezident İlham Əliyev "Şahdəniz"i yüksək dəyərləndirərək demişdir: "Şahdəniz" yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcəkdir. Eyni zamanda biz ixrac coğrafiyamızı genişləndirmək əzmindəyik... Əgər "Şahdəniz" üzrə kontrakt imzalanmasaydı, bu gün biz nəinki başqa ölkələrin, öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Çünki "Şahdəniz" bizim üçün əsas mənbədir. Biz bütün bu işləri görməklə Avrasiyanın yeni enerji xəritəsini tərtib edirik və Azərbaycan uzun müddət bundan sonra bir çox ölkələr üçün strateji tərəfdaş olaraq qalacaqdır".

"Şahdəniz" Bakıdan Adriatik dənizinin İtaliya sahillərinədək uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyidir. Keçən ilin son günü Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) istifadəyə verilməsi ilə dəhliz tam fəaliyyətə başlayıb. Belə ki, TAP genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri) və TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) nəql olunan Azərbaycan qazını qəbul edərək Avropadakı istehlakçılara çatdırır. Gürcüstan və Türkiyə isə "Şahdəniz"dən 15 ilə yaxındır qaz alırlar. Bu, "Şahdəniz Alfa" platformasında yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində hasil edilən qazdır. Mavi yanacaq Gürcüstana CQBK ilə çatdırılır. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya qoşulan xətt 2007-ci ildən yanacağı Ərzurumadək daşıyır. Bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır.

"Şahdəniz Bravo" platforması layihənin ikinci mərhələsi çərçivəsində 2018-ci ildə işə salınıb. Həmin ilin ortalarından Azərbaycan qazı genişləndirilmiş CQBK ilə TANAP-a ötürülür və Türkiyədəki istehlakçılara çatdırılır. "Şahdəniz"in kondensatı isə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə vurulur.

Hasilatı artırmaq üçün qazma əməliyyatları da davam etdirilir. Qazma işləri hasilat sabit səviyyəyə çatanadək davam edəcək.

İlin əvvəlindən AÇG-dən əldə olunan gəlirlər bu yataqlar blokunda da hasilatın ahəngdar və təhlükəsiz davam etdiyini təsdiqləyir. AÇG 1997-ci ilin noyabr ayında "Çıraq" platformasından ilk neftin alındığı vaxtdan indiyədək Azərbaycanın sosial-iqtisadi inkişafına böyük töhfələr verib. Prezident İlham Əliyev bu yataqların ölkəmizin əsas gəlir mənbəyi olduğunu dəfələrlə vurğulayıb.

Hazırda AÇG-də 8 platforma fəaliyyət göstərir. Hasilat "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" platformalarından həyata keçirilir. Qalan 2 platforma emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğularıdır. Keçən ilin əvvəlində AÇG-dən əldə olunan hasilatın həcmi 500 milyon tonu ötüb.

"Azəri-Çıraq-Günəşli"dən çıxarılan neft sualtı kəmərlərlə Səngəçal terminalına çatdırılır. Xatırladaq ki, bu, dünyanın ən böyük neft-qaz terminallarından biridir. Başlanğıcını buradan götürən ixrac marşrutları nefti dünya bazarlarına nəql edir.

Məlum olduğu kimi, 2017-ci ilin sentyabr ayında AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş imzalanmışdır. Yeni müqavilə 2050-ci ilin əvvəlinədək davam edəcək və qarşıdakı illərdə AÇG ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracaq. Odur ki, indi AÇG-nin müqavilə sahəsində yerləşdiriləcək daha bir hasilat platforması inşa edilir.

"Azəri Mərkəzi Şərqi" adlanan platforma gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir. Koronavirus pandemiyasının təsirləri görülən bütün işlərdən yan keçməsə də, bu platformadan ilk nefti 2023-cü ildə əldə etmək planları dəyişməz qalır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Mingəçevir və Yevlaxda yerli resurslardan iqtisadi inkişafda səmərəli istifadə olunması müzakirə edilib

**Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq, özəl sektorun inkişafı, xüsusilə kiçik və orta sahibkarlığın (KOB) iqtisadiyyatda rolunun artırılması məqsədilə sistemli islahatlar həyata keçirilir, bu sahəyə dövlət dəstəyi gücləndirilir.**

Regiona səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarovun Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyevlə görüşündə Yevlaxda kiçik və orta biznesin inkişafı, yerli resursların fəal dövriyyəyə cəlb olunması, Yevlax Pilot Aqroparkının yaradılması, bu sahədə kiçik və orta biznesin iştirakı məsələləri müzakirə edilib.

İqtisadiyyat Nazirliyinin verdiyi məlumatda qeyd edilir ki, aqroparkın fermerlər üçün ayrılacaq sahəsində hər biri 20 hektarda olmaqla 55 fermer təsərrüfatının təşkili, sənaye təyinatlı sahədə isə sahibkarlıq subyektləri tərəfindən emal müəssisələrinin qurulması nəzərdə tutulur.

Mingəçevirdə də nazir Mikayıl Cabbarov şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılovla yerli ehtiyatlardan səmərəli istifadə olunması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, Mingəçevir turizm klasterinin yaradılması məsələlərini müzakirə edib.

Səfər zamanı nazir Mikayıl Cabbarov Mingəçevir Sənaye Parkında "Mingəçevir Tekstil" MMC-nin iplik fabriklərində istehsal prosesi ilə tanış olub, istehsalın həcminin artırılması, yeni istehsalat sahələrinin və iş yerlərinin yaradılması məsələləri müzakirə edilib.

Mingəçevir Sənaye Parkının ərazisində "Mingəçevir Tekstil" MMC-nin iki iplik istehsalı fabriki fəaliyyət göstərir. 14,5 hektar sahədə təşkil edilmiş və investisiya dəyəri 93,5 milyon ABŞ dolları olan fabriklərin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit verilib. Müasir avadanlıqlarla təchiz olunmuş və Almaniya, İsveçrə, Yaponiya və Türkiyənin qabaqcıl texnologiyaları əsasında fəaliyyət göstərən müəssisələrdə 450-dən çox işçi çalışır. İllik istehsal gücü 20 min ton olan fabriklərdə pambıq mahlıcından müxtəlif çeşiddə iplik istehsal olunur. Fabriklərdə yerli xammaldan istifadə edilir. İstehsal olunan məhsullar daxili bazarla yanaşı, Türkiyə və digər ölkələrə ixrac olunur.

# Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə daha 30 mənzil verildi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Qaradağ rayonunun "Ümid" qəsəbəsində şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə 30 mənzil təqdim edilib.



Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Qaradağ rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov iştirak ediblər.

S.Babayev vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində möhtəşəm Zəfər əldə edən Azərbaycanda şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri geniş miqyas alıb. Xüsusilə bu kateqoriyadan olan vətəndaşların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır.

Nazir son üç ildə təqdim edilən mənzil və fərdi evlərin sayında ciddi artımı diqqətə çatdırıb. Bildirib ki, 2018-ci ildə 626 faiz, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934 mənzil, 2020-ci ildə əvvəlki ilə nisbətən 70 faizə qədər çox, yəni 1572 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə verilib.

Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli sərəncamının bu istiqamətdə mühüm irəliləyişlərə imkan yaratdığını diqqətə çatdıran S.Babayev sərəncamla 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi ev veriləcəyini deyib. Qeyd edib ki, həmin kateqoriyadan olan həm 2014-2019-cu illərdə uçota alınmış şəxslər, həm də 2020-ci ildə hərbi əməliyyatlarda (o cümlədən Vətən müharibəsində) şəhid olanların ailələri və müharibə əlilləri yaxın beş ildə mənzil və fərdi evlə təmin olunacaq.

Nazir bildirib ki, 2021-ci ildə 3 minədək mənzil və fərdi ev verilməklə, bu il mənzil və fərdi evlə təminat proqramı 2018-ci ilə nisbətən 5 dəfəyə yaxın genişlənəcək. Prezident İlham Əliyevin tapşırığı ilə keçmiş köçkünlər üçün tikilmiş mənzillər də şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilir. Hazırda "Ümid" qəsəbəsindəki yaşayış binalarından təqdim edilən 30 mənzil də daxil olmaqla 2021-ci ilin planı üzrə artıq 230 mənzil verilib. Ümumilikdə isə indiyədək 9430 mənzil və fərdi ev verilib.

Müharibə əlillərinin minik avtomobilləri ilə təminatından bəhs edən S.Babayev 2018-ci ildə 265 ədəd, 2019-cu ildə 600 ədəd, 2020-ci ildə 400, ümumilikdə indiyədək 7200-dən çox avtomobilin müharibə əlillərinə verildiyini, bu tədbirlərin də davam edəcəyini diqqətə çatdırıb. O, dövlət başçısının göstərişi ilə müharibədən sonrakı dövrdə şəhid ailələri, müharibə iştirakçıları və əlilləri, erməni terrorundan zərər çəkənlərlə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketi barədə məlumat verib.

Yeni mənzillə təmin olunanlar Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibənin əlilləri, Aprel döyüşlərinin iştirakçısı, habelə İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələridir.

Şəhid ailəsi üzvləri və müharibə əlilləri tarixi Zəferimizlə sonsuz qürur hissi keçirdiklərini vurğulayıblar. Onlar sosial təminatlarının gücləndirilməsi, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlərdən razılıqla bəhs ediblər. Göstərilən yüksək diqqət və qayğıya, yeni mənzillə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Hadrut-Cəbrayıl-Şükürbəyli yeni avtomobil yolunun tikintisi sürətlənir



**Martın 15-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarına səfəri zamanı Hadrut-Cəbrayıl-Şükürbəyli yeni avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına başlanmışdır.**

Sözügedən avtomobil yolu başlanğıcını Xocavənd rayonunun Hadrut qəsəbəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yoluna birləşir.

Layihələndirilən yolun uzunluğu 43 kilometrdir. Dövlət başçısının tapşırığına əsasən, bu yol Qarabağın inkişaf planı nəzərə alınmaqla və 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir.

Artıq yolboyu genişmiqyaslı tikinti işləri həyata keçirilir. İşin həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "13 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış yerli şirkət "Körpü-Bina-Tikinti" MMC birgə icra edir.

Hazırda avtomobil yolu boyunca torpaq işləri icra olunur. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yol genişləndirilərək profilə salınır və I texniki dərəcəyə uyğun 26,5 metr enində yeni torpaq yatağı inşa edilir. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb olunub.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə 45 dairəvi boru və 25 düzbucaqlı su keçidi, həmçinin zəruri olan yerlərdə 7 yeni avtomobil körpüsünün inşası da planlaşdırılır. Körpülərdən biri Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolu ilə kəsişmədə layihələndirilib. Bununla da sözügedən avtomobil yolundan magistral yola rahat giriş-çıxış təmin olunacaq.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

Yeni Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobill yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla, sözügedən rayonların 20-ə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nəqliyyat, rabitə və yüksək texnologiyalar işçi qrupu çərçivəsində digər aidiyyəti dövlət qurumları ilə koordinasiyada həyata keçirilən bu yol layihəsi Qarabağın vahid nəqliyyat konsepsiyasının ayrılmaz tərkib hissəsidir.

# ADAU tələbəsi Vaşinqton Universiteti və Valensiya Politexnik Universitetinin sertifikatlarını qazanıb

**Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) Masaçusets Texnoloji Universiteti ilə Harvard Universitetinin birgə təsis etdikləri edX platformasına (www.edx.org) qoşularaq əməkdaşlıq müqaviləsi imzalayıb.**

Müqaviləyə əsasən, ADAU tələbələri edX platformasında bir sıra ixtisaslar üzrə onlayn kurslarda təhsil almaq imkanı əldə edəcəklər. Təhsil almaqla yanaşı, kursları müvəffəqiyyətlə bitirən və imtahanları uğurla verən tələbələr ödənişsiz olaraq sertifikat da alacaqlar. Qarşılıqlı əməkdaşlıq nəticəsində yaranan bu imkandan bütövlükdə 5000 nəfər tələbə yararlanacaq.

Qeyd edək ki, dünyanın 160-dan çox nüfuzlu universitetini əhatə edən edX platformasında 3000-dən artıq onlayn təhsil kursu təqdim edilir. Hər bir kurs üzrə sertifikatın qiyməti 100-300 ABŞ dolları arasında dəyişir.

Məlumat üçün bildirək ki, edX platforması ilə əməkdaşlığın başlamasından qısa müddət keçməsinə baxmayaraq, ADAU-nun aqronomluq ixtisası üzrə 2-ci kurs tələbəsi Eşqin Dünyamalı oğlu Əliyev iştirak etdiyi proqramları uğurla tamamlayaraq Washington Universiteti və Valensiya Politexnik Universitetinin sertifikatlarını qazanıb.

# Arıçılığa dövlət dəstəyi bəhrəsini verir

Əvvəli 1-ci səh.

Onu qeyd edək ki, sözügedən sərəncamlarda qarşıya qoyulan vəzifələrin icrası inzibati xarakter daşımır, əksinə, fermerlərin həmin sahələrə maraq göstərməsi üçün dövlət tərəfindən onlara maliyyə dəstəyi verilir, həmçinin məhsulun xarici bazara çıxarılması, yüksək gəlir əldə edilməsi üçün kömək göstərilir. Fermerlər də bu dəstəyə cavab olaraq məhsul istehsalını artırırlar.

Dövlətin inkişafına dəstək verdiyi ənənəvi sahələrdən biri də arıçılıqdır. Prezidentin 5 mart 2018-ci il tarixli "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" sərəncamı bu sahənin inkişafına öz müsbət təsirini göstərib. Həmin sənədə əsasən, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə 2018-ci il də daxil olmaqla, beş il müddətində subsidiya ödənilir.

Arıçılığın inkişafında təkşilatlanma və idarəçilik önəmli rol oynayır. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun nəzdində Arıçılıq Mərkəzi yaradılmış, həmçinin Azərbaycan Arıçılıq Assosiasiyası təsis edilmişdir. Hazırda damazlıq arıçılıq təcrübəsinin genişləndirilməsi, genofond (damazlıq) arıxanalarının yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, sərgi-satış yarmarkalarının təşkili və s. istiqamətlərdə məqsədyönlü tədbirlər görülür. Bunun nəticəsi olaraq arı ailələrinin sayında, bal və digər arıçılıq məhsullarının istehsalında, habelə ixracında əhəmiyyətli artım müşahidə edilir. Arıçılığa dövlət dəstəyi sayəsində rayonlarda fermerlərin bu sahəyə marağı ildən-ilə artır.



Məsələn, Biləsuvar rayonunda mövcud olan 98 arıçılıq təsərrüfatında 3000-dən çox arı ailəsi saxlanılır. Ötən il həmin arı ailələrinin hər birindən 10 kiloqram olmaqla 36 ton 12 kiloqram məhsul götürülüb. Saxlanılan arı ailələrinə görə, rayon arıçılarına dövlət tərəfindən 30 min manat subsidiya ödənilib.

Astara rayonunda da arıçılığın inkişafında böyük dönüş yaranıb. Qeyd edək ki, Astara arıçılıqda ölkəmizin öndə gedən rayonlarındandır. Astara Arıçılar Birliyinin sədri Arif Nəzərov deyir ki, bu il məhsuldarlıq yaxşı olacaq. Artıq arılar çiçək tozu gətirməyə başlayıb. Bu, məhsuldarlıqda mühüm rol oynayan faktordur. Ötən il rayonda 400 tona yaxın bal tədarük olunub. Cari mövsüm ilk balın süzülməsi hava şəraitindən olaraq iyun ayının ortalarında aparılacaq. A.Nəzərov bildirir ki, rayonda həvəskar arıçılarla birlikdə 1300-dən çox arıçı var. Onların təsərrüfatlarında 28 minə yaxın arı ailəsi bəslənilir.

Bu iki rayonun timsalında arıçılığın inkişafında müsbət dinamika aydın görünür. Dövlət tərəfindən arıçılığın inkişafına dəstək verildikdən sonra ölkəmizin bütün ərazisində arı ailələrinin saxlanmasına və bal istehsalına böyük maraq yaranıb. Son vaxtlar bu növ məhsullarla daxili tələbatın ödənilməsi ilə yanaşı, ixracın da artdığının şahidi oluruq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Vətən savaşının qəhrəmanları

# Şəkili döyüşçünün ölümlə "zarafatı"

## 27 sentyabrda yenidən doğulan vətəndaş, bir həmlə ilə 15 hərbçi yoldaşını xilas edən əsgər və "Qumbara" ləqəbi alan Tərlan...

**44 günlük Vətən müharibəsi başa çatıb. Döyüşlərdə qəhrəmanlıq göstərən oğullar haqqında hələ on illər sonra da yazılacaq. Onlar haqqında filmlər çəkiləcək, qəhrəmanlıq dastanları qoşulacaq...**



Bu gün o qəhrəmanlardan biri ilə tanış olaq. Şəkili Tərlanla, "Qumbara" Tərlanla...

Həsənov Tərlan Rafiq oğlu 16 iyul 1997-ci ildə Şəki rayonunun Baş Zəyzid kəndində anadan olub. 2014-2018-ci illərdə Azərbaycan Texniki Universitetində Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisası üzrə bakalavr pilləsində təhsil alıb. Ali təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanıb. "Dəmir yumruq" əməliyyatının uğurla icrasında göstərdiyi fədakarlıqlara görə, "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları və döyüşlərdə fərqləndiyinə görə fəxri fərmanla təltif olunub.

O da Vətən savaşının bütün iştirakçıları kimi qəhrəmandır, tariximizin şərəf səhifəsinin müəlliflərindəndir. Amma onu bu silsilədə bir qədər fərqləndirən başqa bir igidliyi, rəşadəti də var. 15 əsgər yoldaşını xilas etmək üçün özünü partlayan qumbaranın üstünə atmaqla o, barəsində xüsusi danışılmağı haqq edib...

Söz onundur...

### İlk mərminin sevinci

- 2019-cu ilin oktyabr ayında həqiqi hərbi xidmətə yola düşmüşəm. Ali təhsilli olduğum üçün 1 il müddətində hərbi xidmət çəkməli idim. Sentyabrın 27-də müharibə başlandı. Çox sevindim ki, bu mənim hərbi xidmət keçdiyim müddətlə üst-üstə düşdü. Həmin vaxt mən Goranboy rayonunda "N" saylı hərbi hissədə idim.

27 sentyabr sanki mənim yenidən doğulduğum bir gün oldu. Məhz həmin gün mənim qalib ordunun əsgəri, qalib dövlətin vətəndaşı olmağımı təmin etdi...

Açığı, o qədər müharibə adı ilə təlim keçmişdik ki, dedik, yəqin, yenə təlimə gedəcəyik. Mən radiotelefonçu idim. Hər vəziyyətə hazır təlimlərdən keçirdik. 27 sentyabrda ilk mərmi atılanda bizim necə sevindiyimizi indi sözlə ifadə edə bilmərəm. Sevincdən əsgər yoldaşlarımın gözlərində işıq yanırdı. Çünki hər gün, hər saat, hər dəqiqə, hər an hazır idik döyüşməyə...

Müharibəni heç kim arzulamaz. Biz də arzulamazdıq, əgər ermənilər torpaqlarımızı işğal etməsəydilər. Biz niyə müharibə arzulamalıydıq ki, kim istəyər rahat yaşamaq varkən, gedib öldürsün-ölsün...

Görünür, güclü millət, xalq, dövlət olmaq üçün bunlardan da keçməlisən. Əgər sənin torpağını işğal edirlərsə, üstünə ayaq açırlarsa, deməli, sən də hər an döyüşə, torpağını azad etməyə hazır olmalısan. Onun üçün şəraitin və zamanın yetişməsini gözlədik, səbir etdik. Ali Baş Komandanın əmrini gözlədik. O əmr veriləndə təbii olaraq sevinclə qarşıladıq. Demək, gözlədiyimiz, arzuladığımız o zaman yetişib. Demək, biz işğal altında olan torpaqlarımızı azad etməklə bərabər, qisasımızı da almaq imkanı qazanırıq. 1990-1994-cü illərdə törədilmiş qətliam və cinayətkarlıqların qisasını almaq və əlbəttə ki, torpaqlarımızı işğaldan azad edə biləcəyimizin sevincini yaşayırdıq. Bu baxımdan müharibə başlanmasına sevinirdik...

### "Qisasımız qiyamətə qalmadı"

- Hərbi xidmətim müddətində tanıdığım komandirlərimdən ən son gələn əsgərinə qədər hamımız arzulayırdıq bu döyüşləri. Üzbəüz düşmənə, əslində, onun kim olduğunu və ən əsası isə bizim kim olduğumuzu göstərmək lazım idi. Günahsız dinc əhalinin qisasını, 30 ilə yaxın atəşkəs dövründə törətdikləri cinayətlərin intiqamını almağın vaxtı çatmışdı. Buna, əlbəttə, sevinirdik. Buna görə də "dörd gözlə" Ali Baş Komandanımız Cənab Prezident İlham Əliyevin "İrəli" komandasını gözləyirdik.

Bayaq soruşdunuz hərbi xidmət vaxtı evə getməyi gözləyirdiniz? Baxır evə necə getməyi gözləyirdik. Ən uca zirvəyə çatıb sonra evə dönmək istəyirdik. Üç yolun üçü də ucadır - şəhidlik, qazilik, qələbə... Üç yoldan bir ilə evə qayıtmaq arzumuz idi. Bu mənim tabor komandirimin sözüdür - Azərbaycanın Vətən savaşındakı ilk şəhidi polkovnik-leytenant Şirvanov Mehman Mirəziz oğlunun...

Bütün hazırlıqlar qələbəyə köklənirdi. Həmişə hazır idik. Arzuladığımız günün gəlişi ona görə sevindirdi bizi... savaşın ilk saatlarından hər kəsin mövqeyi bəlli edildi. Goranboy istiqamətindən qoşulduq döyüşlərə. Döyüşə başlayanda öncə qalib gəlib sonra şəhid olmağı arzulayırdıq. Qələbə sevincini yaşamadan şəhid olsaq, düz olmazdı...

Hamımızı döyüşdən-döyüşə aparan qələbə arzusu idi. O qədər inanırdıq ki, qalib olacağımıza, çünki yolumuz haqq yoludur. Biz işğal etməmişdik, biz azad edirdik yurdlarımızı... Azad edirdik ki, illərdir dogma torpaqlarına həsrət qalan insanlar ata-baba yurdlarına qayıtsınlar. Yaşlılarımız bu dünyanı ata yurdu həsrəti ilə gözüaçıq tərk etməsinlər. O qədər dost-tanışımız var ki, ahıl ata-anaları, baba-nənələri bu dünyadan gözüyaşlı gedib. Nə vaxtsa öz yurdlarında dəfn edilmələrini vəsiyyət ediblər. Adam bunları düşündükcə dəli olurdu ki, niyə axı, kimsə gəlib sənin yurduna sahiblənib yurddaşlarını didərgin salmalıdır. Buna dözmək mümkünsüzdü.

Bu dözümsüzlüklə qatılmışdıq döyüşlərə... Ətrafında döyüş yoldaşların şəhid olurdu, yaralanıb hospitallara göndərilir, qazi olurdular. Sənin qələbə əzmin o halda bir az da artırdı. Onların da əvəzinə döyüşüb, onların da qisasını almaq istəyi üstün gəlirdi. İnanırsınız, hamısının son sözü "Vətən sağ olsun" olurdu. Baş leytenant Rustəmov Ruslan Nüsrət oğlu mənim lap yanımda şəhid oldu. Son anda dedi ki, 5 uşağım var, onlara qovuşdurun məni. Onun qisasını necə almayasan mənfur ermənidən...

Onun gözü yaşlı qalan beş uşağı ilə birgə minlərlə atasız qalan uşağın qisasını...

Və nə yaxşı ki, qisasımız qiyamətə qalmadı...

### "Rabitə aparatı məni xilas etdi"

- Döyüşə girən hər kəs "Qarabağ Azərbaycanındır, olub və olacaq" deyə böyük inamla irəliləyirdi. Hamımız o fikrə sığınıb döyüşürdük. Elə bil bizi irəli aparan da həmin amal idi. Belə olmalıdır e, başqa yolu yoxdur...

Qarabağ Azərbaycandır! Vəssalam!

Vətənin igid oğulları olduqca bu vətən basılmaz, daha kimsə cəsarət etməz. Həmişə bu ruhda, vətəni müdafiəyə hazır olmalıyıq, arxayınlaşmaq məğlubiyyət gətirər. Biz əbədi qələbəyə köklənmişdik.

27 sentyabrda döyüşlər başlandı, müxtəlif istiqamətlərdə hücumlarımız oldu. İrəliləyirdik, döyüşçülərin ruh yüksəkliyi arzuolunan səviyyədə idi. Oktyabrın 1-də hücum əməliyyatı vaxtı Talış dağının Ağ Uçuq məntəqəsində döyüşürdük. Mövqelərimiz elə idi ki, ortamıza düşən partlayıcı hamımızı məhv edə bilərdi. Döyüş taktikası tələb etdiyi mövqedə idik, amma təhlükə də qaçılmazdır.

Düşmən tərəfindən atılan əl qumbarasının düşməyi ilə özümü onun üstünə atmağım eyni anda oldu...

Onu havada müşahidə etmişdim, hara düşəcəyini də tutmuşdum artıq. Eyni anda düşəcəyi təqdirdə nə törədəcəyi də aydın oldu mənə... Bunun baş verəcəyi təqdirdə döyüş tapşırığımız yarımçıq qala bilərdi. Bu da o deməkdir ki, həmin döyüşdə qələbəmiz sual altına düşür. Bizə bu lazım deyildi.

Əsgər yoldaşlarımın evlərinə şəhid yox, sağ-salamat, qalib, canlı getmələri üçün bir mənim olmamağım ağır itki deyil...

Mən onların həyatını və döyüş tapşırığımızı xilas etdim. Möcüzəyə baxın ki, mənim həyatımı da həmin vaxtı əynimdə olan o zirehli gödəkcə ilə rabitə aparatı xilas edib...

Allahın bir möcüzəsi idi sağ qalmağım. Orda şəhid olmağım, əslində, mütləq idi.

Bir var bir evə şəhid göndərilə, bir var 15 evə - eyni deyil. Dediyim kimi, bir də döyüş tapşırığının taleyi keçdi beynimdən. Sol qaşımın altından qəlpə yaraları aldım, başım da kontuziya...

### "Yuxularımda müharibə bitməyib"

- Qumbara partladığı zaman şoka düşmüşəm. Bir də hardasa 4-5 gün sonra ayıldım. Özümə gələn kimi yenidən davam etdim döyüşlərə... Xəyalən isə heç döyüşdən çıxmamışdım. Şokda olduğum zaman belə döyüş yoldaşlarımın yanında olmuşam...

Orda aldığım kontuziyadan indi rahat yata bilmirəm. Yuxularımda müharibə bitməyib, çox dəhşətli yuxular görürəm. Amma çalışıram ona da qalib gəlim...

Zamanla keçəcək yəqin... Əvvəllər hər gün olurdu, amma indi azalıb. Müalicəm hələ davam edir.

Sağ olsunlar, Şəki şəhərinin icra hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon Şöbəsi mənimlə maraqlanırlar...

Subayam. Sonra yəqin ailə qurmaq planına baxaram. Ya ixtisasım üzrə işləyərəm, ya da iş quraram...

Əsas intiqamımız idi, onu da aldıq. Başqa heç nə əhəmiyyətli deyil...

Keçmiş döyüşçü indi Şəkidə yaşayır. Şəkidə isə hamımız bilirik, ayamasız, ləqəbsiz bir adama rast gələ bilməzsən. Həmyerliləri Tərlana da bir ləqəb qoşublar, artıq o indi Şəkinin "Qumbara" Tərlanıdır...

Amma bu ayama necə də gözəl, möhtəşəm səslənir...

Tərlanın indidən sonra yeddi arxadönəni də, əslində bütün Şəki bu ləqəblə fəxr edəcək, qürur duyacaq...

Özü isə indi adi həyatı sürür. Təvazökar, sadə bir həyat... Deyir, ətrafda mənə dəyər verildiyini görəndə düşünürəm ki, yenə lazım gəlsə, canla-başla vətəni müdafiə etməyə gedərəm.

İkinci Dünya müharibəsində Gəray Əsədov da özünü pulemyotun qarşısına sipər edib döyüş yoldaşlarını xilas etmişdi. Tərlan deyir ki, onun adını əvvəllər çox eşitmişdim, amma o anda yadıma Gəray Əsədov düşməmişdi, yalnız yoldaşlarımı və əməliyyatı xilas etməyi düşünmüşdüm: "Bilin ki, Azərbaycanda qəhrəman çoxdur, lap çoxdur... Bu müharibədə isə hər kəs qəhrəman idi..."

Bu qəhrəmanları tanımaq və tanıtdırmaq isə bizlərin borcudur...

*Ramilə QURBANLI,*
*"Azərbaycan"*

# Şəhidin doğum günü məzarı önündə anıldı





**Qarabağ adlı haqq savaşında qəhrəmancasına şəhid olan igid oğullarımızdan biri də Gədəbəydə doğulub boya-başa çatmış çavuş Turxan Rəsul oğlu Allahverdiyevdir.**

Prezident İlham Əliyev tərəfindən döyüşdə göstərdiyi qəhrəmanlığa görə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmiş Turxan yaşasaydı, 25 yaşı tamam olacaqdı.

Şəhidin məzarı önündə keçirilən anım günündə Turxanın ailə üzvləri, doğulub boya-başa çatdığı İnəkboğan kəndinin sakinləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Mərasimdə dövlətin şəhidlərimizə, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, onların ailələrinə göstərdikləri diqqət və qayğıdan danışılmış, istər Birinci və istərsə də İkinci Qarabağ müharibəsində gədəbəylilərin göstərdikləri igidliklərdən söhbət açılmışdır.

Sonra mərasim iştirakçıları şəhidin məzarı üstünə tər qərənfillər düzmüş, ruhuna dualar oxumuşlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Ağdaban soyqırımı qurbanları yad edilib

## 28 il öncə bir gecədə bu ulu yurd, eləcə də Aşıq Şəmşirin külliyyatı erməni vandalları tərəfindən odlara qalanıb

**Ağdaban Kəlbəcərin ən strateji yaşayış məntəqələrindən biridir. Dədə Şəmşirin ulu babası tərəfindən salınan bu kənd Ağdərə rayonunun Çapar kəndinin qonşuluğunda yerləşir.**




Ermənilər heç kimlə qonşuluq edə bilmədiklərini bu kəndin sakinlərini diri-diri odlara qalamaları ilə bir daha sübut ediblər. 1992-ci il aprel ayının 7-dən 8-nə keçən gecə Çapar kəndində yaşayan daşnak tör-töküntüləri Ağdabana qəfil hücum etməklə onu yer üzündən sildilər. Kəlbəcər ilk şəhidlərini məhz orada verdi. Bu dəhşətli hadisə tarixə "İkinci Xocalı" kimi yazıldı. Ağdaban ikinci dəfə 26 mart 1993-cü ildə ermənilər tərəfindən işğala məruz qaldı...

"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin təşkilatçılığı ilə bu günlərdə Ağdaban soyqırımının 29-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.

Bakı Dövlət Universitetinin dosenti Ələmdar Cabbarlı Ağdaban kəndində erməni vandalları tərəfindən törədilən qanlı cinayət haqqında məlumat verib. O bildirib ki, 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə erməni quldur dəstələri Ağdərə rayonunun Çapar yaşayış məntəqəsindən Kəlbəcərin Ağdaban kəndinə hücum edərək 130 evdən ibarət kənddə xalqımıza qarşı soyqırımı cinayəti törətmişlər. Hadisə zamanı onlarca insan xüsusi amansızlıqla qətlə yetirilmiş, diri-diri yandırılmış, bədən üzvləri kəsilib-doğranmışdır: "...Xüsusilə uşaqları, qadınları və yaşlı insanları hədəf seçən erməni quldurları insanlar arasında qorxu və vahimə hissini daha da artırmaq üçün kəndi tamamilə yandırmış və qarət etmişdilər. Qanlı cinayət zamanı klassik Azərbaycan ədəbiyyatının ustad sənətkarı Ağdabanlı Qurbanın və onun oğlu, XX əsr ədəbiyyatımızın və aşıq sənətinin görkəmli nümayəndəsi Dədə Şəmşirin zəngin arxivi və nadir əlyazmaları tamamilə yandırılaraq məhv edilmişdir..."

O da diqqətə çatdırılıb ki, həmin gecə 32 nəfər kənd sakini (onlardan 15-i Aşıq Şəmşirin nəslinə məxsusdur) faciənin qurbanlarına çevrilib. Tədbirdə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, Milli Məclisin deputatı, filologiya elmləri doktoru Jalə Əliyeva, Milli Məclisin deputatı Aqil Məmmədov, Əməkdar mədəniyyət işçisi Ədalət Dəlidağlı çıxış ediblər.

Ağdaban hadisələrinə ilk dəfə Ulu Öndər Heydər Əliyev tərəfindən siyasi qiymət verildiyini qeyd edən tədbir iştirakçıları 29 ildən sonra soyqırımı qurbanlarının xatirəsini qalib xalq olaraq yad etdiyimizi vurğulayıblar. Qeyd edilib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan, 44 günlük Vətən müharibəsindəki zəfərimizlə 30 ilə yaxın davam edən işğala, nəhayət ki, son qoyuldu, ərazi bütövlüyümüz bərpa edildi. Bu şanlı Qələbəmiz, eyni zamanda Ağdaban soyqırımını törədən canilərin də üzərində tarixi zəfərdir.

Tədbir çərçivəsində Milli Məclisin deputatı, filologiya elmləri doktoru Jalə Əliyevanın "Müqəddəs ocağın yadigarları" kitabının təqdimatı keçirilib.

Kitabın müəllifi, professor Jalə Əliyeva bildirib ki, uzun müddət üzərində çalışdığı "Müqəddəs ocağın yadigarları" monoqrafiyasının təqdimat mərasiminin məhz Kəlbəcərin, eləcə də bütün torpaqlarımızın azadlığı şəraitində keçirilməsi böyük qürur hissi yaradır. O, bu sahədə tədqiqatlarını davam etdirəcəyini vurğulayıb və həmin əsərlərdən birinin təqdimatının məhz Kəlbəcərdə keçiriləcəyinə inamını ifadə edib.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

Jurnalist araşdırması

# Ot basan, sükuta dalan turizm cığırları

## Bəs pandemiyanın "duman"ı arxasından bu sahənin sabahı necə görünür

Yurdumuzun əsrarəngiz gözəllikləri, qədim abidələri, qoynunda tarixlə müasirliyi birləşdirən paytaxtımız, biri digərindən özəlliyi ilə fərqlənən bölgələrimiz təkcə özümüzü deyil, onun qonağı olan, seyrinə gələn əcnəbiləri də valeh edir.

Təbiət ilin bütün fəsillərində turistlərin Azərbaycana gəlməsinə, ölkəmizi oba-oba, oymaq-oymaq gəzib dolaşmasına imkan verir. Odur ki, xüsusilə son dövrlər ölkədə turizmin əksər növlərinin inkişafı geniş vüsət almışdı. Gəzinti və istirahət üçün Azərbaycanı seçənlərin sayı getdikcə artırdı.

Təkcə 2019-cu ildə ölkəmizə 3 milyon 170 min xarici qonaq gəlmişdi. Həmin ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev Azərbaycanda mövcud olan sabitliyin, beynəlxalq mövqelərimizin möhkəmlənməsinin, beynəlxalq tədbirlərə evsahibliyi etməyimizin turizmin inkişafına xidmət göstərdiyini vurğulayaraq demişdir: "Təkcə bank kartları ilə xarici turistlər Azərbaycanda 1 milyard 260 milyon manat pul xərcləmişlər. Ancaq bütövlükdə nəzərə almalıyıq ki, gələn turistlər, əsasən, qonşu ölkələrdəndir və bizdə olduğu kimi, orada da hələ ki nağd hesablaşmalar üstünlük təşkil edir. Ümumi hesablama göstərir ki, xarici turistlər Azərbaycanda bütövlükdə 4,3 milyard manat pul xərcləyiblər. Mən bunu manatla deyirəm, amma, əslində, bu, valyutadır. Bu valyuta eyni zamanda bir növ ixrac növüdür. Bizim makroiqtisadi vəziyyətimizin sabit olmasında da bunun çox böyük rolu var. Əlbəttə, biz əsas valyutanı neft-qaz satışından qazanırıq. Halbuki qeyri-neft sektorunda ixracın 14 faiz artması indi bu sektordan da valyuta axınını təmin edir".

Təəssüf ki, pandemiya bütün dünyada iqtisadiyyatın digər sahələri ilə yanaşı, turizmə də böyük zərbə vurdu. COVID-19-un ucbatından digər ölkələrə, o cümlədən Azərbaycana səfər etmək istəyən turistlərin üzünə bütün "bəndlər-bərələr" bağlandı. Dövlət Statistika Komitəsi təsdiqləyir ki, koronavirus pandemiyasının yaratdığı böhran nəticəsində turizm sektorunda müşahidə olunan tənəzzül cari ilin əvvəlindən də davam edib və iki ayda əcnəbilər Azərbaycana əsas etibarilə qeyri-turizm məqsədilə gəliblər. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, yanvar-fevral aylarında Azərbaycana dünyanın 123 ölkəsindən 72,1 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,9 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs səfər edib. Baş tutmuş bu səfərlər əsasən qeyri-turizm məqsədilə həyata keçirilib. Gələnlərin 95 faizdən çoxu Rusiya Federasiyası, Türkiyə, İran, Gürcüstan, Ukrayna, Böyük Britaniya, Belarus, Qazaxıstan, Özbəkistan Türkmənistan, İtaliya, Almaniya, ABŞ vətəndaşları olub. Onların əksəriyyətini kişilər, yalnız 5,3 faizini qadınlar təşkil edib.

Bu ilin yanvarında Azərbaycana 36 min və fevralda da bir o sayda əcnəbinin gəldiyini və onların ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 83 faiz az olduğunu Dövlət Turizm Agentliyinin Media və ictimaiyyətlə əlaqələr sektoru da təsdiqləyib: "Hazırda xarici ölkələrə gediş-gəliş var, bunun üçün xüsusi reyslər də mövcuddur. Amma bu o demək deyil ki, qeyd edilən hal turizm vəziyyəti kimi dəyərləndirilə bilər".

Məlumat üçün qeyd edək ki, keçən ilin yanvar-fevral ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı da 13,5 dəfə azalaraq 60,9 min nəfər olub. Bu isə, öz növbəsində, digər ölkələrin də turizm sahəsindəki vəziyyətinin eyni olduğunu göstərən çoxsaylı faktlardan biridir.

Bütün bunlara baxmayaraq, COVID-19-un "duman"ları arxasından turizmin gələcək üfüqləri aydın görünür. Çünki bu elə bir sahədir ki, müasir dövrdə dünya iqtisadiyyatının inkişafını onsuz təsəvvür etmək mümkün deyil. Ona görə də Azərbaycanda da turizmin inkişafı üçün növbəti planlar qurulur, əməli işlər görülür. Məsələn, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Avtomobil Yolları Dövlət Agentliyi yol infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Bu sırada palçıq vulkanları yerləşən ərazinin turizm potensialının nəzərə alınaraq aidiyyəti qurumlar tərəfindən xüsusi turizm konsepsiyasının hazırlanmasını xüsusi qeyd etmək istərdik. Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Abşeron rayonunda yerləşən palçıq vulkanlarının ərazisindəki müasir turizm infrastrukturuna gedən avtomobil yolunun tikintisi artıq başlayıb. Layihə çərçivəsində 3-cü texniki dərəcəyə uyğun inşa edilən 21 kilometrlik yeni yolun torpaq yatağının eni 12, asfalt-beton örtüyünün eni isə 8 metr olacaq. Yol başlanğıcını Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Qobustan qəsəbəsi ərazisindən götürür. Söz düşmüşkən, onu da nəzərə çatdıraq ki, paytaxtdan cəmi 20-25 kilometr aralıda Arbani adlı palçıq vulkanları yerləşən ərazidə salınması nəzərdə tutulan turizm kompleksinə gediş-gəlişi asanlaşdırmaq məqsədilə çəkilən yol tərtib olunmuş qrafiklə və yüksək keyfiyyətlə inşa edilir. Bunun üçün əraziyə lazımi sayda canlı qüvvə və texnika cəlb olunub.

Bu faktın özü də göstərir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial-iqtisadi islahatlarda turizmin özünəməxsus yeri var. Ölkəmizdə inkişafı prioritet sayılan qeyri-neft sektorunun vacib qollarından biri kimi bu sahəyə pandemiyadan əvvəlki dövrdəkindən heç də az diqqət yetirilmir. Bu isə o deməkdir ki, mavi Xəzərin "qızıl qum"lu sahillərində, turistlərin "Naringi cənnəti" adlandırdığı cənub zonasında, Avropanın ən gözəl guşələri ilə yarışda qalib gələ biləcək Qəbələdə, zümrüdlıbaslı Qubada, turizm marşrutlarının genişləndiyi digər şəhər və rayonlarda yenə də qələbəlik olacaq. Hələ mənfur düşmənin tapdağından azad edilmiş bölgələrimizi demirik!

Bəli, Azərbaycan öz Qarabağını dünyaya yeni turizm destinasiyası kimi təqdim edəcək! Çünki bu torpağın turizm potensialı yüksəkdir, burada mövcud olan imkanlar həm daxili, həm də beynəlxalq turizmin inkişafı üçün geniş perspektivlər açır.

Məlum olduğu kimi, erməni vandalları işğal dövründə turizm əhəmiyyətli məkanları da dağıdıb, məscidləri, türbələri və digər qədim abidələri xarabalığa çeviriblər. Lakin biz düşmənin dağıdıb yerləyeksan etdiyi şəhər və kəndlərimzin hamısını yenidən tikib-quracaq, həmin ərazilərdə ən müasir infrastruktur yaradacağıq. İşğaldan azad edilmiş ərazilərin bərpası zamanı hər bir iqtisadi rayonun təbii-iqlim şəraiti və profili nəzərə alınacaq. Yeni beynəlxalq hava limanlarının, avtomobil və dəmir yolu xətlərinin tikintisi bölgənin inkişafına əhəmiyyətli təkan verəcək.

İndi Qarabağda Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa, eləcə də Toğanalı-Kəlbəcər, Füzuli-Hadrut yolları çəkilir. Horadiz-Füzuli, daha sonra Füzuli-Şuşa dəmir yolunun tikintisi nəzərdə tutulur. Füzulidə beynəlxalq hava limanı inşa edilir. Beləliklə, yaxın gələcəkdə Şuşaya gəlmək istəyən xarici qonaqlar Füzuliyə enib, oradan avtomobillə Şuşaya gedə biləcəklər. Bir sözlə, Qarabağın füsunkar, təkrarolunmaz təbiəti, tarixi abidələri və görülən quruculuq-bərpa işləri onu tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevirəcək. Orada musiqi festivallarının və digər beynəlxalq tədbirlərin keçiriləcəyi günlər uzaqda deyil. Təki pandemiya uzaqlaşıb getsin, dünyamızda sağlamlıq bərqərar olsun.

Sağlamlıq demişkən, Dövlət Turizm Agentliyinin təşəbbüsü və dəstəyi ilə Azərbaycanda sağlamlıq turizminin cari vəziyyəti və gələcək inkişaf perspektivləri haqqında geniş hesabat hazırlanıb. Hesabatda sağlamlıq turizminin regional və qlobal səviyyədə rəqabətqabiliyyətliliyi müqayisəli təhlil əsasında araşdırılaraq təqdim olunub.

Araşdırma sənədində ölkəmizdə əsas sağlamlıq turizmi destinasiyaları olan Abşeron, Şabran, Naftalan, Qəbələ, Lənkəran, Şəki, Dağlıq Qarabağ və Naxçıvanda resurslar, sağlamlıq müəssisələri və bu sağlamlıq müəssisələrində turistlərə təqdim olunan xidmətlər öz əksini tapıb. Eyni zamanda sağlamlıq müəssisələrindən kənardakı təbii mineral ehtiyatlar və onların yerləşdiyi rayonlar barədə məlumat verilərək hər biri üzrə inkişaf potensialı qiymətləndirilib. Sənəddə həmçinin sağlamlıq turizminin ölkəmizdə inkişafı məqsədilə müəyyən təkliflər hazırlanıb.

Bəs nə vaxt turist kimi tam arxayınlıqla digər ölkələrə gəzməyə, istirahət etməyə gedə biləcəyik? Nə vaxt əlimizi ürəyimizin üstünə qoyub heç bir pandemiyadan-filandan çəkinmədən, şairin təbirincə:

*"Vətənimin seyrinə çağırıram elləri,*
*Cənnət görmək istəyən Azərbaycana gəlsin!",*

- deyə biləcəyik.

Dövlət Turizm Agentliyinin rəsmisi məlumatların birində sözarası bildirmişdir: "İlin ikinci yarısı ilə bağlı ümidlərimiz var". Gəlin, koronavirus pandemiyası ilə hər birimiz bacardığımız qədər mübarizə apararaq, bu ümidin doğrulacağını təmin edək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# ASAN könüllüləri tərəfindən "Dostluq" turniri keçiriləcək

"ASAN Könüllülük" Məktəbinin və "Qarabağ" futbol klubunun birgə əməkdaşlığı ilə "Dostluq" turniri keçiriləcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, turnir Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun əziz xatirəsinə həsr olunacaq. Belə ki aprelin 22-də futbol klubunun oyunçusu və baş məşqçisi kimi fəaliyyət göstərmiş, ərazi bütövlüyümüzün müdafiəsi uğrunda şəhid olmuş, Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun anadan olmasının 75-ci ili tamam olur.

Gənclərin diqqətinin bu əlamətdar təqvim gününə cəlb edilməsi, Milli Qəhrəmanımızın əziz xatirəsinin anılması və könüllülər arasında təbliği məqsədilə ASAN könüllüləri tərəfindən aprelin 12-dən 22-dək "Dostluq" turniri təşkil olunacaq.

Turnir çərçivəsində 12 qurumun könüllülərindən ibarət komandalar yarışacaq.




## Gədəbəy Rayon İcra Hakimiyyəti
### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

**LOT 1 - Gədəbəy şəhərində şəhərdaxili küçələrin, dalanların və meydanların asfaltlaşdırılması.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqının məbləği: 150 manat**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.**
**Təşkilat: Gədəbəy Rayon İcra Hakimiyyəti**
**VÖEN: 5900076651**
**Fond: 7Y**
**XHK: (004240)2513931**
**Büdcə təsnifatının kodu: 142330**
**Hesab nömrəsi: AZ67CTRE00000000000002513931**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T BIK CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *nizamnamə;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitlər;*
- *lisenziya;*
- *işçi qüvvəsi haqqında arayış;*
- *maşın və avadanlıqlar haqqında arayış;*
- *analoji işlər üzrə təcrübəsinin olması barədə məlumatlar;*
- *tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatı (müqavilə dəyəri 100 min ABŞ dollarının manat ekvivalentindən yüksək olarsa, müqavilə dəyərinin 5 faizi həcmində təminat tələb olunacaqdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29.04.2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **07.05.2021-ci il saat 17:30-a** qədər Portal vasitəsilə Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri **11.05.2021-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti
### 2021-ci ildə Sumqayıt şəhərində Karvan yolu küçəsinin və Mehdi Hüseynzadə adına Sumqayıt Şəhər Stadionunun giriş hissəsinin asfaltlanması işlərinin satın alınması məqsədilə
### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

**LOT 1 -** Sumqayıt şəhərində Karvan yolu küçəsinin və Mehdi Hüseynzadə adına Sumqayıt Şəhər Stadionunun giriş hissəsinin asfaltlanması

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 870 (səkkiz yüz yetmiş) manatdır.**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır .

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **12 may 2021-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **24 may 2021-ci il saat 17:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **25 may 2021-ci il saat 15:00-da** Portalda açılacaqdır.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti
### *açıq tender elan edir*

Tender 3 (üç) LOT üzrə keçiriləcəkdir.

**LOT 1 -** Sumqayıt şəhərində çoxmənzilli yaşayış binalarının fasadlarının və girişlərinin təmiri;

**LOT 2 -** Mehdi Hüseynzadə adına Sumqayıt Şəhər Stadionunun ətraf hissəsinin abadlaşdırılması və yaşıllıq işləri (I hissə);

**LOT 3 -** Mehdi Hüseynzadə adına Sumqayıt Şəhər Stadionunun ətraf hissəsinin abadlaşdırılması və yaşıllıq işləri (II hissə).

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsi ilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər bir LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı: LOT-1 3000 (üç min) manat, LOT-2 1350 (bir min üç yüz əlli) manat və LOT-3 1365 (bir min üç yüz altmış beş) manatdır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **12 may 2021-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **24 may 2021-ci il saat 17:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **25 may 2021-ci il saat 15:00-da** Portalda açılacaqdır.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# İşğaldan azad olunan ərazilərimiz böyük investorların diqqət mərkəzindədir

Tarixi günlərini yaşayan Azərbaycan işğaldan azad olunan ərazilərində yenidənqurma işlərini davam etdirir. Bu torpaqlarda inşa olunan yollar bölgənin inkişafını sürətləndirəcək və regionun tranzit əhəmiyyətini artıracaq. Füzuli rayonunda inşa edilən hava limanı ilə yanaşı, Şuşa şəhərinə iki avtomobil yolu tikilir. Həmin yollardan birinin adı "Qələbə" yoludur. Nisbətən aran ərazidən keçən digər yol da hava limanından birbaşa gediş-gəlişi təmin edəcək. Bununla da digər ölkələrdə yaşayan azərbaycanlılar, turistlər Qarabağa gəlmək imkanına malik olacaqlar.



Bölgədə böyük iqtisadi layihələr icra olunacaq və bunun üçün böyük şəhərlərin baş planları tərtib edilməkdədir. İlk olaraq Ağdam şəhəri bərpa ediləcək. Müharibədən əvvəl bu şəhərdə təqribən 40 minə yaxın insan yaşayırdı. İndi əhalinin sayı artaraq 50 mindən çox olub. Odur ki, 50 minlik, bəlkə də 70 minlik bir şəhər planlaşdırılıb, infrastruktur yaradılmalıdır. Ondan sonra inzibati və yaşayış binaları, o cümlədən məktəblər, xəstəxanalar inşa edilməlidir. Bu, böyük bir zaman tələb edir. Azərbaycanın yarışacağı əsas tərəf-müqabili zamandır. Çünki vəsait var və bütün güclər də səfərbər edilib.

Azərbaycana maraq göstərən dost ölkələrə məxsus şirkətlər bərpa işlərinə cəlb olunacaq. Şəhərlərin planlaşdırılması, obyektlərin, o cümlədən infrastrukturun, yolların, körpülərin, elektrik stansiyalarının tikintisi ilə bağlı sifarişlər artıq edilib.

İşğaldan azad olunan ərazilərdə bərpa işləri yeni iqtisadi imkanlar yaradacaq. Görüləcək infrastruktur layihələr hesabına Avrasiyanın yeni bir nəqliyyat mərkəzi açılacaq. Bu cür layihələr, ümumən, regionun geosiyasi statusunu dəyişdirəcək.

Böyük Qələbə sayəsində Azərbaycan daha cəlbedici investisiya ölkəsinə çevrilib. İndi əcnəbi investorlar Azərbaycana daha fəal şəkildə sərmayə qoymağı nəzərdə tuturlar. Onlar da başa düşürlər ki, artıq hərbi əməliyyatların yenidən başlanması riski yoxdur.

İrimiqyaslı layihələr böyük maliyyə vəsaiti tələb edir. Bütün kəndlərə asfalt salınacaq. 100 kilometrlərlə dəmir yolu çəkiləcək. Bütün bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr cari ilin sonuna qədər icra ediləcək. Həmçinin kənd təsərrüfatı və digər infrastruktur işləri də prioritetdir. Məktəblər, xəstəxanalar, idman kompleksləri, mədəniyyət ocaqları tikiləcək.

Qarabağın güclü iqtisadi potensialı mövcuddur. Çoxşaxəli və müxtəlif təyinatlı logistik layihələr icra olacaq. Füzulidə tikilən hava limanının uçuş-enmə zolaqları və hava limanının fəaliyyətini təmin edəcək naviqasiya sistemləri operativ istifadəyə veriləcək. Hava limanı beynəlxalq statuslu olacaq. Uçuş-enmə zolaqları ən ağır təyyarələr və yük təyyarələri də daxil olmaqla bütün növ təyyarələri qəbul edə biləcək. Hava limanından həm xaricdən alacağımız yüklər nəzərə alınmaqla ərazilərin bərpası üçün, həm də qonşu dövlətlərin vətəndaşlarının Şuşa şəhərinə rahat gedib-gəlmələri üçün istifadə olunacaq. Bərpa işləri sistemli və planlı şəkildə aparılacaq. Hava limanının tikilməsi təkcə Füzuli şəhəri ilə məhdudlaşmır. Zəngilanın çox mühüm logistika mərkəzinə çevriləcəyini nəzərə almaqla Laçında və Zəngilanda da 2 hava limanının tikilməsi planlaşdırılır. Bu il ərazilərin bərpası üzrə kifayət qədər geniş xüsusi investisiya proqramı təsdiq edilib.

Qarabağın böyük kənd təsərrüfatı potensialı var. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı fəaliyyəti üçün münbit imkanlar var. Müvafiq işlərin görülməsinə artıq başlanıb. 7 min hektardan çox ərazidə payızlıq buğda əkilib. Qarabağ alternativ enerji mənbəyinə çevriləcək. Hələ müharibədən əvvəl Azərbaycan bərpaolunan enerjiyə investisiyalar cəlb etmək üçün işlər aparmışdır. İki iri beynəlxalq şirkət ümumi həcmi 440 meqavata bərabər günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə yatırmaq arzusunda olduqlarını bildirib. Dünyanın aparıcı enerji şirkətləri arasında tender keçirilib və iki şirkət ən yaxşı təkliflər irəli sürüb. Qarabağ "yaşıl enerji" zonasıdır. Məhz azad edilmiş ərazilərdə geniş imkanlar mövcuddur. Kəlbəcər-Laçın zonasında külək stansiyaları tikiləcək. Zəngilan-Cəbrayıl zonasında isə günəş stansiyaları yaradılacaq. Çünki bu yerlərdə günəş şüalarının il ərzində miqdarı çox böyükdür.

İşğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi ilə bağlı məsələlərin həllinə də operativ surətdə başlanıb. Şəhərlərin və kəndlərin inkişafının baş planlarının tərtib edilməsi prosesi artıq başlanıb. Pilot layihələrin icrasına da başlanıb. "Ağıllı kənd" layihəsi artıq icra olunur. 30 il ərzində öz torpaqlarından qovulmuş insanlar üçün işğaldan azad edilmiş ərazilərdə maksimum əlverişli yaşayış və iş imkanları yaradılacaq.

Reallaşacaq layihələr Azərbaycanı dünya miqyasında daha da qüdrətli dövlətə çevirəcəkdir.

***Elnur RÜSTƏMOV**,*
***Füzuli rayon prokuroru, kiçik ədliyyə müşaviri***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə 20 ədəd daşınabilən kümxananın satın alınması ilə bağlı keçirilən
### *təkliflər sorğusuna dəvət edir*

Maraqlanan təşkilatlar (012) 497-71-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı: 200.00 (iki yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Kapital Bank ASC 28 May filialı**
**KOD: 200123**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT AIIBAZ2X**
**H/HESABI: AZ47AIIB38060019440817168112**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər **16 aprel 2021-ci il saat 15:00-dək** qəbul olunur.

İddiaçıların təklifləri **16 aprel 2021-ci il saat 17:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən **"Abşeron rayonu, Novxanı qəsəbəsi ərazisində yerləşən mövcud 35/6 kV-luq 1x10 MVA gücündə 143 saylı Yarımstansiya əvəzinə yeni 35/6 kV-luq 2x10 MVA gücündə yarımstansiyanın tikintisi və avadanlıqların quraşdırılması işlərinin"** satın alınması ilə əlaqədar 08 aprel 2021-ci il tarixdə "Azərbaycan" qəzetində və etender.gov.az saytında elanı verilmiş elektron açıq tenderin Əsas şərtlər toplusunda iş həcmi texniki səhv nəticəsində düzgün yerləşdirilmədiyindən müsabiqənin ləğv olunmasına qərar verilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya Publik Hüquqi Şəxsi tərəfindən elan olunmuş Sorğu Sisteminin (MSS) satın alınması üzrə tender prosedurunda tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi 07.04.2021-ci ildən 14.04.2021-ci ilədək, tender təklifinin təqdim edilməsinin son tarixi 15.04.2021-ci ildən 22.04.2021-ci ilədək və zərflərin açılış tarixi 16.04.2021-ci ildən 23.04.2021-ci ilədək uzadılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı üçün yükdaşıma xidmətlərinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 16 mart 2021-ci il tarixli qərarına əsasən, **"Cargo.az" MMC** qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: (+99412) 310-07-70 (daxili 2011), e-mail: **asalayev@its.gov.az)** ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

**LOT-1.** Hemofiliya xəstəliyi ilə mübarizə tədbirlərinin icrası ilə əlaqədar dərman vasitələrinin satın alınması.

**İştirak haqqı:**
**LOT 1- 800.00 (səkkiz yüz manat 00 qəpik) manat;**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK: AIIBAZ2X**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
- *tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **18.05.2021-ci il saat 18:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **26.05.2021-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçının təklifləri **27.05.2021-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun 12 mart 2021-ci il tarixdə elan etdiyi "Dövlət Sosial Müdafiə Fondunun (qurumları) aparat və struktur bölmələrində 2020-ci il üzrə illik maliyyə göstəriciləri əsasında hazırlanmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartları tələblərinə uyğunlaşdırılması xidmətinin satın alınması" üzrə keçirilən açıq tenderin müddəti uzadılmışdır. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq tenderdə tələb olunan ilkin hüquqi sənədlərin müddəti 09 aprel 2021-ci il saat 14:00-dan 15 aprel 2021-ci il saat 14:00-a, tender təkliflərinin müddəti isə 19 aprel 2021-ci il saat 14:00-dan 23 aprel 2021-ci il saat 14:00-a müəyyən edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Qala Sığorta" ASC 01.04.2021-ci il tarixdən etibarən yeni ünvanda fəaliyyət göstərəcək.

01.04.2021-ci il tarixdən etibarən "Qala Sığorta" ASC-nin baş ofisi **Bakı şəhəri, Yasamal rayonu, Azərbaycan prospekti, 14, məhəllə 221** ünvanına köçürülmüşdür.

***Rəhbərlik***

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti *açıq tender elan edir*

**LOT-1: Heydər Əliyev Beynəlxalq Aeroportunun 1 və 2 saylı terminallarında, vağzalyanı komplekslərində gündəlik və dövri təmizlik işlərinin satın alınması**

İştirakçılara təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yuxarıda göstərilən LOT üzrə tender təklifini yazılı surətdə möhürlənmiş, imzalanmış ikiqat zərflərdə Azərbaycan dilində təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Potensial imkanı olan iddiaçılar 1000 manat iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra LOT üzrə Əsas şərtlər toplusunu "Azərbaycan Hava Yolları" QSC-nin Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu 2-ci Terminal ünvanından ala bilərlər.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Hesab: AZ88AZAL38050000001000002000**
**VÖEN: 9900000831**
**Bank: "PREMIUM BANK" ASC-nin 2 saylı filialı**
**Bankın VÖEN-i: 9900006241**
**Kodu: 508267**
**M/H: AZ70NABZ01350100000000020944**
**S.W.İ.F.T: AZAL AZ 22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının oxşar işlərin aparılması üzrə təcrübəsi haqqında arayış;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının tam adı və hüquqi statusunu əks etdirən sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, VÖEN və s.) surəti, həmçinin bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tender təklifinin qüvvədə olma müddəti (təklif zərfləri açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (ən azı tender təklifinin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox qüvvədə olmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18.05.2021-ci il saat 15:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş, imzalanmış ikiqat zərflərdə **26.05.2021-ci il saat 15:00-a** qədər Azərbaycan Respublikası, AZ 1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu 2-ci Terminala təqdim etməlidirlər.

İddiaçıların tender təklifi zərfləri **27.05.2021-ci il saat 15:00-da** AZ 1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu ünvanında açılacaq.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaq.

İddiaçının səlahiyyətli nümayəndəsi zərflərin açılması prosedurunda iştirak edə bilər.

Tenderlə əlaqədar əlavə məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Hava Limanlarının İstismarı Baş İdarəsinin rəis müavini - Xaqani Həsənov;
(99412) 497-26-00 Əlavə (26-01);
(99412) 492-90-64;
hgasanov@airport.az

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Bolt, qayka, şurup, vint və xamutların satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 21 aprel 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Boya qatqılarının satın alınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 19 aprel 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" PHŞ-yə aid elanların, bildiriş və sorğuların çapa hazırlanıb dərc olunması və daim yenilənən **www.azerbaijan-news.az** saytında yerləşdirilməsi xidmətlərinin satın alınması ilə əlaqədar ƏƏSM Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" PHŞ ilə "Azərbaycan" qəzeti redaksiyası arasında 05 aprel 2021-ci il tarixdə 5150 (beş min bir yüz əlli) manat məbləğində müqavilə imzalanmışdır.

***"Sosial Xidmətlər Agentliyi" PHŞ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP-ın Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruzəli Aslanov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Hicran Hüseynova və həyat yoldaşı Rüfət Səfərəliyev Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərova oğlu, Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun şöbə müdiri

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin "25 №-li Yol İstismarı" MMC-nin direktoru İmamverdi Aslanova atası

**ƏHMƏD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Xanım Sadıxovaya həyat yoldaşı

**TOFİQ SADIXOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5107
Sifariş 619
Qiyməti 40 qəpik